Xalqın qəzeti!

# Xalq qəzeti

№ 235 (30351) 27 oktyabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq yaşıl enerji zonası kimi elan olunub. Bizim təbii sərvətlərimizin istifadəsi üçün böyük potensial var və aydındır ki, külək də artıq bu sərvətə çevrilib.

# Azərbaycan bərpaolunan enerji ölkəsinə çevrilir

## Prezident İlham Əliyev 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində



**Oktyabrın 26-da 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimi olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Əvvəlcə Qaradağ Günəş Elektrik Stansiyasında görülən işlər barədə videoçarx nümayiş olundu.

Qeyd edək ki, 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulub.

Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır.

Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda, atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyada 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

*(ardı 2-ci səhifədə)*

# Qarabağda "mina savaşı" davam edir

**Azərbaycan 3 ildir ki, düşməndən təmizlənən 1200 kilometrdən artıq keçmiş təmas xətti boyunca yerləşdirilmiş mina təhlükəsi ilə üz-üzə qalıb. İlk növbədə, bu ərazilər minadan təmizlənir. Qarabağ və Şərqi Zəngəzurun davamlı inkişafı və bölgənin dirçəlişi bu təhlükənin aradan qaldırılmasından asılıdır.**



Yəni, məcburi köçkünlərin məskunlaşdırılması və regionun iqtisadi inteqrasiyası prosesi mina problemi həll edilmədən mümkün deyil. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır: "Ona görə, biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın. Azad edilmiş torpaqlarda minalardan başqa, partlamamış sursatlar da kifayət qədər çoxdur, bu da təbiidir. Çünki müharibə dövründə gedən döyüşlər təbii ki, azad edilmiş torpaqlarda partlamamış sursatların çoxluğuna səbəb olmuşdur. Odur ki, əraziləri bu sursatlardan təmizləmək də böyük zəhmət tələb edən məsələdir".

Hazırda minatəmizləmə işləri kənd və qəsəbələrdə, eləcə də içməli su hövzələrinin kənar ərazilərində, su kanalları boyunca aparılır. Əməkdaşlar ən müasir avadanlıqlarla təchiz olunub və bu sahədə beynəlxalq kurslarda iştirak edərək akkreditasiyadan keçiblər. Bu barədə iqtisadçı akademik Ziyad Səmədzadə bildirdi:

*(ardı 8-ci səhifədə)*

# Paşinyanın "The Wall Street Journal"a müsahibəsi və unutduğu reallıqlar

**Ermənistan baş naziri Nikol Paşinyanın nüfuzlu ABŞ nəşri "The Wall Street Journal"a müsahibəsinə bir neçə aspektdən nəzər salmağa ehtiyac var. Birinci aspekt Azərbaycanla, ikincisi isə Rusiya ilə münasibətlərdir. Hər iki istiqamət üzrə ayrı-ayrı məqamları təhlil edərkən, ortaya üç nəticə çıxır. 1. Ermənistan ölkəmizlə durumun normallaşmasını istəmir. 2. İrəvan Moskva ilə vəziyyətin mürəkkəbləşməsinə səy göstərir. Nəinki səy göstərir, bu istiqamətdə ciddi çalışır. 3. Ermənistan Azərbaycanla əlaqədar məsələlərdə Rusiyanı, Rusiya ilə bağlı məsələlərdə isə Azərbaycanı ittiham yolu tutur. Elə fon yaradır ki, sanki Bakı ilə Moskva İrəvanı təkləyiblər. Heç şübhəsiz, bu gediş Qərbdən daha böyük dəstək almağa hesablanıb.**




Detallara gəlincə, əvvəlcə ondan başlayaq ki, Ermənistanın baş naziri son dövrlər bütün müsahibələrində olduğu kimi, yenə də anti-Rusiya xəttinə sadiqdir. Həm sadiqdir, həm də bu xətti, belə demək mümkünsə, zənginləşdirməkdədir. Nikol əvvəllər Qarabağla bağlı Rusiya sülhməramlıları üzərinə yüklənirdisə, onların bölgədəki fəaliyyətinin səmərəsizliyinə dair rəy formalaşdırırdısa və nəticə etibarilə Rusiyanın Ermənistan üçün əhəmiyyətsizliyi eyhamını vururdusa, artıq yanaşmada müəyyən dəyişiklik var. Dəyişiklik özünü, bütövlükdə, Rusiyanın Ermənistandakı hərbi mövcudluğuna ehtiyacın duyulmadığının vurğulanmasında göstərməkdədir. Söhbət Gümrüdəki 102-ci Rusiya hərbi bazasından gedir. Paşinyan həmin bazanın təhlükəsizlik baxımından ölkəsinə heç bir üstünlük qazandırmadığı qənaətini bölüşür. Deməli, sülhməramlılardan sonra Ermənistanın anti-Rusiya ritorikasına daha bir seqment əlavə olunur. Çox güman ki, Nikol gələcəkdə mövzunu genişləndirəcək. Tam mümkündür ki, "zəhmətkeş və vətənpərvər ermənilərin" Gümrüdə mitinqini də təşkil edib rusların getməsini tələb etsin. Mitinq və nümayiş tam onun üslubudur...

*(ardı 7-ci səhifədə)*

# "Time" reallığa böhtan atır

**Beynəlxalq hüququn norma və prinsiplərinə hər zaman hörmətlə yanaşan Azərbaycan Ermənistana qarşı ərazi iddialarının olmadığını dəfələrlə bəyan edib. Bununla bağlı öz fikirlərini Prezident İlham Əliyev də bir neçə dəfə açıqlayıb.**



Dövlətimizin başçısı iyulun 22-də Şuşada "Euronews" televiziyasına müsahibəsində bildirib ki, bir milyon azərbaycanlı evindən məhrum olmuşdur. Lakin bütün bu acılara baxmayaraq, biz qisas almadıq: "Mən dedim ki, biz qisası döyüş meydanında alacağıq, lakin Ermənistan müharibənin ilk günündən mənim tələb etdiyim bütün ərazilərdən geri çəkiləcəyi tarixləri təqdim edən kimi biz dayandıq və sonra da sülh haqqında danışıqlara başladıq. İndi sülh bizim gündəliyimizdədir. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı ərazi iddiamız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik".

*(ardı 10-cu səhifədə)*

# Ermənistandan köçəköçdür

**Son 40 ildə ilk dəfədir ki, Ermənistanda yaşayanların sayı 3 milyonun altına düşərək 2 milyon 900 min nəfər olub. Bu, rəsmi statistikadır. Əslində isə hazırda Ermənistanda cəmi 2 milyon erməni yaşayır. "Dənizdən-dənizə Böyük Ermənistan" adlı avantürist iddialarla beyni zəhərlənmiş toplum getdikcə azalmaqdadır. Depopulyasiya, eləcə də hayların şimallı "dostlarının" apardığı siyasət nəticəsində "kiçik Ermənistan" da indi əllərindən çıxmaq üzrədir.**



Xüsusilə 44 günlük müharibədən sonra Hayastanı tərk edənlərin sayında kəskin artım müşahidə olunur. Xoşbəxtliklərini xaricdə axtaranların böyük əksəriyyəti isə gənclərdir. Onları bu addımı atmağa şirnikləndirən əsas amil Qərbdə və okeanın o tayında erməni diasporunun güclü olmasıdır.

"Dağlıq Qarabağdan (?) köçənlərin 10 mindən çoxu Ermənistanı tərk edib". Bu məlumatı "APRI Armenia" analitik mərkəzinin "Qeyri-müəyyənlik şəraitində tərəqqi" adlı konfransda çıxış edən keçmiş "Artsax"ın keçmiş "dövlət naziri" Artak Beglaryan açıqlayıb.

*(ardı 4-cü səhifədə)*

# Prezident İlham Əliyev 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak edib

*(əvvəli 1-ci səhifədə)*

## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli nazirlər!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Ötən ilin martında biz günəş elektrik stansiyasının təməlqoyma mərasimində iştirak edirdik. İndicə göstərilən video həmin tariximizin əlamətdar anını nümayiş etdirdi. Əminəm ki, bu, böyük bir yolun, iki qardaş ölkənin böyük yolunun başlanğıcıdır. Bu gün biz nisbətən qısa zamanda – təxminən, ilyarımdan bir qədər çox müddət ərzində Abşeron yarımadasının bu boş hissəsinin yaşıl enerji mənbəyinə çevrildiyini görəndə çox qürur duyuruq. Bu, əlamətdar nailiyyətdir. Mən Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə, həmçinin yaşıl enerjiyə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə "Masdar"ı, onun rəhbərliyini təbrik etmək istərdim.

Bu gün qonaqlarımız arasında Birləşmiş Ərəb Əmirlikləri hökumətinin dörd nazirini, həmçinin qardaş ölkədən böyük nümayəndə heyətini görməkdən qürur duyuruq. Bu, tərəfdaşlığımızın və dostluğumuzun yaxşı nümunəsidir, eləcə də hər iki ölkənin bugünkü mərasimə böyük əhəmiyyət verdiyini nümayiş etdirir. Birincisi, ona görə ki, artıq göstərildiyi kimi, bu, regionda ən böyük günəş elektrik stansiyasıdır və ikincisi, ona görə ki, artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır.

Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək. Əminəm ki, daha çox layihələr olacaq. Faktiki olaraq bu gün – bir qədər sonra biz çox qısa zamanda 1 qiqavat bərpaolunan enerji istehsalına yol açacaq üç investisiya sazişinin imzalanma mərasiminin şahidi olacağıq. Ona görə də bugünkü tədbiri Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında qardaşlıq əlaqələrinin parlaq nümunəsi hesab edirik.

Mən bu gün bizimlə birgə olduqlarına görə əziz qonaqlarımıza minnətdarlığımı bildirmək istərdim. Mən Azərbaycana etibar edən, bərpaolunan enerjiyə böyük həcmdə investisiya yatırmağı qərar verən və Azərbaycanın yaşıl gündəliklə bağlı hədəflərə çatmasına imkan yaradacaq şirkət olan "Masdar"a xüsusi minnətdarlığımı bildirmək istərdim. Bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir.

Qeyd etdiyim kimi, bu gün üç investisiya sazişi imzalanacaq, lakin bizim planlarımız daha genişdir. Biz mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq və bu, regionun enerji inkişafında tam bir inqilab olacaq, çünki Azərbaycan dünyada ilk dəfə XIX əsrin ortalarında neftin istehsal olunduğu ölkədir. Dənizdəki yataqlardan ilk neft ötən əsrin ortalarında istehsal olunub. İndi bizim zəngin yanacaq ehtiyatlarımızın olduğunu nəzərə alaraq, biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu, bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir.

Ona görə də mən ümidvaram və tam əminəm ki, bizim bütün planlarımız həyata keçəcək. Bugünkü mərasim faktiki olaraq bunu nümayiş etdirir. Mən həm də ümidvaram ki, bugünkü mərasim yaxşı nümunədir və Birləşmiş Ərəb Əmirliklərindən olan bir çox şirkətlərə gəlib bizimlə işləmək üçün yaxşı siqnal olacaq. Mən bilirəm ki, bu yaxınlarda bizim milli neft şirkətlərimiz, enerji şirkətlərimiz ADNOC və SOCAR artıq Azərbaycanda rəsmi olaraq tərəfdaş olublar. Bilirəm ki, Birləşmiş Ərəb Əmirliklərində və digər ölkələrdə birlikdə işləmək üçün planlar var. Beləliklə, biz indi, həqiqətən də, ölkələrimiz, hökumət strukturlarımız və şirkətlərimiz arasında əməkdaşlığın inkişafının yeni mərhələyə yüksəldiyini görürük.

Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir. Son 30 il ərzində bizim çoxmilyardlı investisiya portfoliomuz olub. Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür. Hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir. Lakin, eyni zamanda, biz başa düşürük ki, bizim neft və qazımıza hələ uzun illər ərzində beynəlxalq bazarda tələbat olacaq. Bu məqsədlə çoxsaylı neft və qaz kəmərləri sistemi istismara verilib və indi biz neft və qazı müxtəlif istiqamətlərə ixrac edirik. Azərbaycan beynəlxalq bazarlara neft, təbii qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ixracatçısıdır.

Əlbəttə ki, növbəti illərdə biz hidrogeni, o cümlədən, yaşıl hidrogeni ixrac edəcəyik. Bu məqsədlə biz bu potensialı yaratmaq üçün tərəfdaşlarımızla, dünyanın müxtəlif ölkələrindən olan şirkətlərlə çox yaxından işləyirik.

Azərbaycandakı investisiya mühitinə gəldikdə, mən artıq qeyd etdim ki, ölkəmizin iqtisadiyyatı çox sabitdir. Son 20 il ərzində bizim ümumi daxili məhsulumuz dörd dəfədən çox artıb. Biz birbaşa xarici borcumuzu ümumi daxili məhsulun 10 faizindən aşağı səviyyəyə salmağa və iyirmi il bundan əvvəl 50 faizə yaxın olan yoxsulluq səviyyəsini 5,5 faizə endirməyə nail olmuşuq.

Beləliklə, bu onu göstərir ki, neft və qaz ixracından daxil olan gəlirlərin ədalətli paylanılması tamamilə yeni reallığı yaradır. Növbəti illərdə biz qısa müddət ərzində milli enerji şəbəkəmizin gücləndirilməsini təmin edəcək dövlət proqramını icra etməyi planlaşdırırıq. Bu, çox zəruridir. Çünki mən bizim yalnız "Masdar" şirkəti ilə icra etməyi planlaşdırdığımız layihələri qeyd etdim. Bir çox digər investisiya təklifləri var və onların bəziləri artıq icra mərhələsindədir.

Biz əlbəttə ki, milli enerji şəbəkəsini gücləndirməliyik və qeyd etdiyim kimi, dövlət proqramı icra olunur. Biz hər şeyi vaxtında edəcəyik. Biz artıq



maliyyə resursları ayırmışıq ki, bərpaolunan enerji mənbələrini istehsal edən investorlarımız özlərini tamamilə rahat hiss etsinlər.

Eyni zamanda, sizə məlumat vermək istəyirəm ki, bizim bərpaolunan enerji gündəliyimiz təkcə günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda biz üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Biz artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarını istismara vermişik və bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da yaşıl enerjiyə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır.

Ümumiyyətlə, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq yaşıl enerji zonası kimi elan olunub. Bizim təbii sərvətlərimizin istifadəsi üçün böyük potensial var və aydındır ki, külək də artıq bu sərvətə çevrilib. Çünki külək həmişə, xüsusilə də təyyarə ilə enəndə bəzən müəyyən problemlərin mənbəyi olub. Lakin indi külək təbii sərvətdir.

Bunu ola bilsin, 10-20 il bundan əvvəl təsəvvürə gətirmək çətin olardı. Lakin indi bu belədir və xüsusilə Xəzər dənizində külək çox güclüdür, hətta bu gün buradakı külək onu göstərir ki, bu potensial buradadır.

Beləliklə, bunlar gələcək üçün planlardır. Əlbəttə, bu investisiyalar bizə böyük həcmdə təbii qaza qənaət etmək imkanını verəcək ki, həmin qaz hazırda elektrik enerjisi istehsalı üçün istifadə edilir. Söhbət ixrac üçün qənaət ediləcək bir neçə milyard kubmetr təbii qazdan gedir. Çünki son geosiyasi dəyişikliklər nəticəsində Azərbaycan qazına Avropada heç vaxt olmadığı qədər daha çox ehtiyac var.

Biz əsas daşıma infrastrukturunu, Xəzər dənizindəki yataqlardan Avropaya qədər uzanan 3500 kilometrlik qaz boru kəmərini vaxtında istismara vermişik. Bu da daha geniş regionun enerji təhlükəsizliyinə daha bir töhfə olacaq.

Əlbəttə ki, planlarımız enerji dəhlizini, Xəzər–Avropa İttifaqı enerji dəhlizini yaratmaq üçün tərəfdaşlarımızla fəal işləməkdən ibarətdir. Ötən ilin dekabrında müvafiq müqavilə imzalanıb. Biz artıq fəaliyyətimizə başlamışıq, rəhbər komitə bir neçə dəfə toplanıb. Bir neçə aydan sonra bizim yeni enerji təhlükəsizliyi layihəsinin – Yaşıl Enerji Dəhlizinin, inteqrasiya edilmiş ötürücü, istehsal və istehlak müəssisələrinin, o cümlədən Qara dənizin dibindən keçəcək elektrik kabelinin tam texniki-iqtisadi əsaslandırması hazır olacaq. Hazırda 4 qiqavat gücündə bərpaolunan enerji mənbələri üçün texniki-iqtisadi əsaslandırma hazırlanır.

Beləliklə, bunlar bizim planlarımızdır və müstəqillik tariximiz bizim təkcə enerji sahəsində deyil, bütün sahələrdə planlarımızın gerçəkləşdiyini göstərir. Çünki bizim siyasi iradəmiz var, bizim cəmiyyətdə birlik var. Bizim Birləşmiş Ərəb Əmirlikləri və Birləşmiş Ərəb Əmirliklərindən olan şirkətlər kimi möhtəşəm tərəfdaşlarımız var.

Əminəm ki, biz bütün məqsədlərimizə nail olacağıq və gələcəkdə bu kimi daha çox mərasimlər keçirəcəyik. Bizimlə burada olduqları üçün qonaqlarımıza bir daha təşəkkürümü bildirmək və bu əlamətdar tədbir münasibətilə hamımızı təbrik etmək istəyirəm.

Çox sağ olun.

***

**Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir mərasimdə çıxış edərək dedi:**

– Salaməleyküm!

Zati-aliləri cənab Prezident Əliyev!

Hörmətli qonaqlar, əziz dostlar, xanımlar və cənablar!

Həqiqətən də Azərbaycana, Bakıya qayıtmaq və olduqca önəmli bir tədbirdə iştirak etmək xoşdur. Bu tədbir Azərbaycanın enerji şaxələndirilməsi və davamlı iqtisadi inkişafına aparan yolda mühüm bir tədbirdir.

İcazə verin, əvvəlcə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Zati-aliləri Prezident Əliyevə və Azərbaycan xalqına ən xoş arzularını çatdırım.

Cənab Prezident, bu ilin əvvəlində Azərbaycana gəlişimiz və indi də bu olduqca vacib mərasimdə layihənin gerçəkləşdirilməsində iştirak etməyimiz həqiqətən də bizim hörmətimizin, ehtiramımızın və götürdüyümüz öhdəliyə sadiqliyimizin nümunəsidir.

Mən "Masdar"ın heç bir layihəsini görməmişəm ki, dörd nazir və Birləşmiş Ərəb Əmirliklərinin ən yüksək səviyyəli nümayəndə heyətinin üzvləri eyni vaxtda iştirak etsin. Bu, həqiqətən də böyük bir ehtiramın, hörmətin və Sizin ölkənizlə əməkdaşlığımızın nümunəsidir.

Cənab Prezident, mən Sizin çox nəcib, xoş sözlərinizi çox yaxşı xatırlayıram. Elə bu ilin əvvəlində Əbu-Dabidə Dayanıqlılıq Həftəsində çıxışınızı yaxşı xatırlayıram. Siz dediniz ki, Azərbaycanın bərpaolunan enerji mənbələrini uzun illər bundan əvvəl inkişaf etdirmək qərarı təkcə enerji təhlükəsizliyi ilə bağlı deyildi. Bu, cəsarətli və düşünülmüş qərar idi, hətta mən deyərdim, strateji bir addım idi. Bu, yeni sənaye sahələrini inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, "yaşıl" iqtisadi artım üçün strateji addım idi.



Zati-aliləri, bu yanaşma Birləşmiş Ərəb Əmirliklərinin də yanaşmasının güzgüdəki əksinə bənzəyir. Əslində bu, Birləşmiş Ərəb Əmirliklərinin ötən iyirmi il ərzində qəbul etdiyi bir yanaşmadır. Bu gün Birləşmiş Ərəb Əmirlikləri böyük fəxarət hissi ilə "Masdar" kimi mütərəqqi enerji şirkətinin timsalında bunu sərgiləmiş olur. Bildiyiniz kimi, "Masdar" dünyanın aparıcı məhz bərpaolunan enerji şirkətinə çevrilmişdir.

Bu layihə ölkələrimiz arasında yaxın münasibətlərin inkişafında və möhkəmlənməsində mühüm mərhələdir. Bu, 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək və karbon dioksid emissiyalarını ildə 200 min ton azaldacaq layihədir.

Zati-aliləri, bir az əvvəl qeyd etdiyiniz kimi, biz bu gün, həmçinin iki günəş və bir külək enerji istehsalı üzrə saziş imzalayacağıq ki, bu da gündə əlavə 1000 meqavat təmiz enerji deməkdir. Bunlar olduqca önəmli addımlardır. Bunlar konkret addımlardır ki, biz Azərbaycanda razılaşdırılmış 10 qiqavat gücündə bərpaolunan enerji layihələrini – külək və günəş enerjisinin inkişafı planımızı həyata keçirək. Bu, kifayət qədər sürətlə həyata keçirilən işdir.

Zati-aliləri, BMT-nin İqlim Dəyişikliyi üzrə COP-28 Konfransına cəmi 34 gün qalıb və bugünkü tədbir Paris Sazişinin məqsədlərini əyani reallığa çevirmək üçün lazım olan praktiki tədbirləri mükəmməl şəkildə təcəssüm etdirir. Bu il həlledici məqamdır. Mən deyərdim ki, COP-28 Paris Sazişindən sonra əldə edilən irəliləyişləri nəzərdən keçirən qlobal bir xülasə ili olduğu üçün iqlim fəa-




liyyəti istiqamətində kritik məqamdır.

Qeyd etmək lazımdır ki, Paris Konfransı dünyanı ortaq bir hədəf ətrafında birləşdirdi. Bu, ümumi məqsəd uğrunda millətləri və ölkələri birləşdirmək istiqamətində uğurlu bir addım idi. Lakin o vaxtdan bəri qlobal miqyasda aparılan təhlilləri nəzərdən keçirsək, görərik ki, biz tam məqsədə gedən yolda hələ də inamla irəliləmirik. Bərpaolunan enerjiyə yatırılan investisiyalar artmaqda davam edir. Bu il dünyada əlavə rekord 500 qiqavat istehsal edildi. Lakin, bilirsiniz, dünya 2030-cu ilə qədər bərpaolunan enerji gücünü üç dəfə artırmalıdır ki, 1,5 səviyyəsi əlçatan olsun.

İlk dəfədir ki, biz praktiki addımları COP-28 səviyyəsində cəmiyyətdə ifadə edirik, yəni, emissiya yeddi il ərzində 22 qiqaton azaldılmalıdır. Mən əminəm ki, bu, çox böyük bir vəzifə, işdir. Bu, bütün millətlər, bütün ölkələr üçün bir vəzifədir. Heç bir ölkə, xalq, qurum bu işin öhdəsindən təkbaşına gələ bilməyəcək. Bizə hər bir ölkənin Azərbaycan kimi təmiz enerji sahəsində müəyyən edilmiş məqsədlərlə energetikaya keçid üçün aydın planlar hazırlaması lazımdır. Rekord müddətdə bir sıra tutarlı layihələrin hazırlanmasını və həyata keçirilməsini təmin etmək üçün iqlim maliyyələşdirməsində yenilikçi yanaşmalara ehtiyacımız var. Azərbaycandakı layihələrdə, bu layihədəki tərəfdaşlıqda da yanaşmalar məhz bu istiqamətdədir.

Hörmətli iştirakçılar, əziz dostlar!

Bu layihənin ərsəyə gəlməsində, onun reallaşdırılmasında əməyi keçən bütün tərəfdaşlara – Əbu-Dabi İnkişaf Fonduna, Asiya İnkişaf Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinə təşəkkür edirəm. Əslində, bu, özünəməxsus, bənzərsiz bir modeldir və ötən illər ərzində "Masdar"ın işləyib hazırladığı bir yanaşmadır. Bu, çoxtərəfli və ikitərəfli qurumların, xüsusən dünyanın müxtəlif yerlərindən aidiyyəti tərəflərin bir araya gəlməsinin nümunəsidir. Xüsusən planetimizin Cənub yarımkürəsində real nəticələr əldə etmək üçün dünyanın hər yerindən yenilikçi qarışıq maliyyə vəsaitlərinin bir araya gəlməsinin əla bir təzahürü, nümunəsidir. Bu, "Masdar"ın 40-dan çox ölkədə bərpaolunan enerji layihələrini uğurla həyata keçirmək üçün təxminən iyirmi ildir inkişaf etdirdiyi layihə maliyyələşdirməsində katalizator modelidir. Rəhbərlikdən aldığımız dəstək də əlamətdardır ki, bu dəstək vasitəsilə biz 40-dan çox ölkədə qısa müddət ərzində bu qədər layihəni həyata keçirmişik.

Azərbaycan Hökumətinin Azərbaycanın külək və günəş potensialından istifadə etmək, eyni zamanda, sistemin baza gücünü təbii qazla təmin etmək baxışı enerjini daha təhlükəsiz, daha əlçatan və dayanıqlı edəcək. Həm "Masdar", həm də Birləşmiş Ərəb Əmirlikləri bu səyahətdə Sizin tərəfdaşınız olmaq arzusundadır. Bir çox digər ölkələrdə də belə layihələri həyata keçirmək əzmindəyik. Biz Azərbaycanla və dünyanın bir çox ölkələri ilə iddialı məqsədlərə nail olmaq üçün 2030-cu ilə qədər ən azı 100 qiqavat təmiz enerjini istehsal etmək məqsədilə bütün qitələrdə sizinlə və digər həmfikir tərəfdaşlarla, təşkilatlarla, ölkələrlə işləməyə davam etməyin intizarındayıq.

Bu, həmçinin dünyada istifadə olunan enerji resurslarının karbonsuzlaşdırılması üzrə həmfikir tərəfdaşlarla birgə işləmək deməkdir ki, bu, əslində, gələcək rifah baxımından önəmli vasitə olacaqdır.

Zati-aliləri, ötən illər ərzində mən dünyanın müxtəlif yerlərində insanlarla görüşmüşəm, söhbət etmişəm. Son bir ildə deyə bilərəm ki, dünyanın hər yerindən, cəmiyyətin hər bir təbəqəsindən olan bir çox insanla, hökumət nümayəndələri, özəl sektor, biznes dairələri, elmi dairələr, qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti və kifayət qədər məşhur şəxslərlə söhbət etmişəm. Bu söhbətlər əsnasında, bütün bu təmaslarda biz çox dərindən başa düşürük ki, qlobal iqlim dəyişikliyi ilə bağlı hansı addımlar atılmalıdır. Ona görə biz çox ümid edirik ki, BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransı bizə iqlim dəyişiklikləri ilə bağlı çox ciddi çağırışlara cavab vermək fürsəti yaradacaq.

Hazırda gündəlikdə olan problemlərin öhdəsindən gəlmək üçün bir sıra texnoloji vasitələr var. Amma bu texnologiyaların bir çoxu ilkin yaranma mərhələsindədir. Digər tərəfdən, qlobal maliyyə məsələsi də var. Bu qlobal maliyyə vəsaitlərinin rəva görülə biləcək, əlçatan ola biləcək səviyyəyə qaldırılması vacibdir. Təmaslarımızdan ibrət götürərək bir reallığı qəbul etmişik ki, əgər biz iqlim dəyişikliyi ilə bağlı maliyyə məsələsini həll etməsək, dünya yenə də qeyri-müəyyənlikdə qalacaq. Odur ki, biz yeni iqlim dəyişikliyi çərçivəsi yaratmaq istəyirik ki, onun daxilində çoxtərəfli inkişaf banklarını, beynəlxalq maliyyə təsisatlarını bir araya gətirmək mümkün olsun, bu maliyyəyə çatımlılıq və istifadə edilə biləcək olsun.

Bilirsiniz, eyni zamanda, BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransını fərqləndirən cəhət bizim elə təməldən yanaşmamızdır. Bu, əməkdaşlıq, tərəfdaşlıq və tammiqyaslı inklüzivlikdir ki, onun sayəsində biz kollektiv olaraq iqlim dəyişikliyi çağırışlarının öhdəsindən gələ bilərik. Bu olmasa, cəhdlərimiz uğursuz olacaq. Paris Sazişindən ötən yeddiillik müddətə baxsaq, bəli, müəyyən irəliləyiş var, amma eyni zamanda, qoyulmuş məqsədlərdən hələ çox uzağıq.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak edib






(əvvəli 2-ci səhifədə)

Paris Sazişi dünyanın bir saziş çərçivəsində bir araya gəlməsi baxımından vacib idi. Amma BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransında biz istəyirik ki, Paris Sazişində qeyd olunanları praktiki, praqmatik nəticəyönümlü fəaliyyətlərə çevirək. Biz istəyirik ki, daha az söz və daha çox əməli iş olsun. Biz real dünya üçün real cavablar, həllər, nəticələr istəyirik. Məhz buna görə bu, hər kəsə açıq dəvətdir, hər kəs ki, buna töhfə verə bilər. Dubaya gəlsinlər və bu şüurla gəlsinlər. Ümid, nikbinlik, tərəfdaşlıq, birlik və həmrəylik olsun. Əgər biz, həqiqətən də, bu istiqamətdə paradiqma dəyişikliyi yaratmaq istəyiriksə, bu, bir uğur resepti olacaq.

Zati-aliləri, mən yenə də Sizə, Sizinlə əməkdaşlığa, Sizin liderliyinizə, nikbinliyinizə, yaradıcılığınıza və işləri həyata keçirmək coşqunuza güvənirəm. Üzümüzə gələn həftə ərzində Sizin nümayəndə heyətinizi Birləşmiş Ərəb Əmirliklərində COP-28 konfransından öncə nazirlər görüşündə, həmçinin BMT-nin 28-ci İqlim Dəyişikliyi Konfransında görmək intizarındayam. Biz istəyirik ki, burada sərgilənən o ruh, həqiqətən də liderlik ruhu, bu layihədə olan o ruh, pozitivlik, tərəfdaşlıq, işbirliyi, həmrəylik ruhu, həmçinin COP-28 Konfransında sərgilənsin və qütbləşməyə, parçalanmağa artıq yetər deyək. Üzləşdiyimiz iqlim dəyişiklikləri çağırışlarının öhdəsindən gəlmək üçün dünyanı bir yol xəritəsi üzərində birləşdirmək vaxtıdır.

Zati-aliləri, mən Sizə nə qədər təşəkkür etsəm də azdır ki, Siz bizə bu qədər etimad göstərmisiniz, bizə fürsət vermisiniz. Əvvəl də qeyd etdiyim kimi, bu, olduqca müdrik bir baxış, müdrik bir liderlikdir. Bu, həmçinin Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın lider baxışıdır ki, belə layihələr bu qədər qısa vaxt ərzində ərsəyə gəlib. Sizin dəstəyiniz, hökumətinizin də göstərdiyi yardım və dəstək sayəsində biz bu qədər qısa vaxt ərzində böyük nailiyyətlərə imza atdıq. Mən Sizə söz verirəm ki, bu, bizim tərəfdaşlığımızın DNT-si olacaqdır.

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan ilə olan təmaslarında hər kəsə və xüsusilə Sizə təşəkkür edirəm.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir Qaradağ Günəş Elektrik Stansiyasını işə saldılar.

"Masdar" şirkəti tərəfindən hazırlanmış, Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş xatirə medalı Prezident İlham Əliyevə təqdim olundu.

Sonda xatirə şəkli çəkdirildi.

## "Masdar" şirkəti ilə yeni birgə layihələr həyata keçiriləcək



**Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sənədlərin imzalanması mərasimi olub.**

Azərbaycan Hökuməti tərəfindən energetika naziri Pərviz Şahbazov, SOCAR tərəfindən iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company – Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni, "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company – Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni və "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company – Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni imzaladılar.

## Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələr genişlənir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur naziri Süheyl bin Məhəmməd Əl-Məzrui, İnvestisiya naziri Məhəmməd Həssən Əl-Suveydi, Xarici İşlər Nazirliyinin iqtisadi məsələlər üzrə dövlət naziri Əhməd Əli Əl-Sayeğ, Əbu-Dabi İnkişaf Fondunun baş direktoru Məhəmməd Saif Əl-Suveydi, "Masdar" şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi daxildir.

Prezident İlham Əliyev, ilk növbədə, qonaqlara Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak etdiklərinə görə minnətdarlığını bildirərək, bunu dostluq əlaqələrimizin və böyük hörmətin nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin dörd nazirinin tədbirdə iştirakına görə bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana minnətdarlığını çatdırmağı xahiş etdi.

Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasiminin keçirilməsini tarixi hadisə kimi qiymətləndirən Azərbaycan Prezidenti ikitərəfli münasibətlərimizin bir çox digər sahələri də əhatə etdiyini vurğuladı.

Prezident İlham Əliyev bugünkü görüşün əməkdaşlığımızın hazırkı vəziyyətinin və perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi və gündəlikdə duran birgə layihələrin əlaqələrimizin daha da genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir, ilk növbədə, ölkəmizdə göstərilən yüksək qonaqpərvərliyə görə nümayəndə heyətinin adından dövlətimizin başçısına minnətdarlığını ifadə etdi. O bildirdi ki, Birləşmiş Ərəb Əmirliklərinin ali rəhbərliyi qüdrətli ölkə olan Azərbaycanla həmişə strateji tərəfdaşlığın önəmini qeyd edir.

Sultan Əhməd Əl-Cabir vurğuladı ki, Azərbaycan qısa müddət ərzində qarşıya qoyulan məqsədlərə çatmaq istiqamətində ciddi uğurlara nail olub. O, ölkələrimiz arasında mövcud olan əlaqələrin uzunmüddətli tərəfdaşlığa xidmət etməsinə əminliyini bildirdi, eyni zamanda, vurğuladı ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri əməkdaşlığın və strateji tərəfdaşlığın yeni nümunəsinin yaradılması işinə sadiqlik nümayiş etdirir.

***AZƏRTAC***

## Milli Məclisin Sədri Türkiyədə



**Azərbaycan parlament nümayəndə heyətinin Ankaraya rəsmi səfəri çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşla görüşüb.**

Parlamentin Sədri 2023-cü ilin həm Azərbaycanın, həm də Türkiyənin həyatında tarixi yubileylərlə zəngin olduğunu vurğulayaraq, bu il Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünün yüksək səviyyədə qeyd edildiyini, həmçinin Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünün tamam olduğunu bildirib. Onun sözlərinə görə, bu bayram təkcə Türkiyənin deyil, bütün türk dünyasının bayramıdır.

Türkiyənin hər platformada Azərbaycanın yanında olduğunu söyləyən Numan Kurtulmuş Ermənistan-Azərbaycan münaqişəsinin artıq həll olunduğunu, ərazi bütövlüyümüzün təmin edildiyini söyləyib. Hazırda Azərbaycanın haqlı mübarizəsini əngəlləməyə çalışan dövlətlərin və bəzi lobbi dairələrinin olduğunu söyləyən TBMM Sədri ölkəmizin diplomatiya sahəsində də qələbə qazanacağına inamını ifadə edib.

***

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını – Anıtqəbiri ziyarət edib, xatirəsini ehtiramla anıb.

Sahibə Qafarova məzarın önünə əklil qoyub.

Sonra Milli Məclisin sədri xatirə kitabına ürək sözlərini yazıb.

***Ə.BƏDƏLOV***
***XQ***

## Bakıda kibertəhlükəsizlik festivalı




**Oktyabrın 26-da Bakı Konqres Mərkəzində kiberfestivala ("Critical Infrastructure Defence Challenge 2023") start verilmişdir. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə təşkilatçılığı ilə keçirilən tədbir kiber sahə üzrə yerli və xarici şirkətləri, dövlət və özəl sektorda fəaliyyət göstərən qurumları, tələbə və ekspertləri bir araya toplamışdır.**

Tədbirin açılışında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev, Mərkəzi Bankın sədri Taleh Kazımov, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov, "Azerconnect" şirkətinin baş direktorunun müavini Dövlət Dövlətov və "BP" şirkətinin Xəzər regionunda xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxış etmişlər.

Tədbir çərçivəsində Azərbaycanda ilk dəfə kiberhücumların simulyasiyası ilə virtual müharibədə dövlət qurumlarının, kritik infrastrukturların, bankların, telekommunikasiya müəssisələrinin IT üzrə 3-5 nəfər tərkibdə 20 komandası 2 gün ərzində yarışacaqlar. Tədbirin son günündə qalib komanda 30.000 manat mükafat əldə edəcəkdir.

Təşkilatçılar tərəfindən tədbir günləri ərzində informasiya təhlükəsizliyi mövzusunda 10 təqdimat, 5 panel müzakirəsi, eləcə də ödənişsiz 6 fərqli sahə üzrə təlimlərin keçirilməsi nəzərdə tutulmuşdur. Bütün qonaqlar kibertəhlükəsizlik həlləri sərgisini ziyarət etmək, virtual yarışlarda iştirak edib hədiyyələr qazanmaq imkanlarına malikdirlər.

***XQ***

# Qərb mediası – təxribat və dezinformasiya aləti

**"Azadlıq" radiosu Füzuli şəhərinə köçürülmüş sakinlərlə bağlı reportaj hazırlayıb. Radionun veb-səhifəsində dərc edilmiş materialın qeyri-peşəkar hazırlandığı onun ilk cümləsindən – başlığından görünür. "Füzuliyə köç kimlərin köçüdür? Onları Qarabağa niyə aparmırlar?" başlığı uyğun olmayan ifadədir. Füzuli özü Qarabağ iqtisadi regionuna daxil olan 8 inzibati rayondan biridir. Onda "Füzuliyə gedənlərin Qarabağa aparılmaması" ifadəsinin nə məna daşıdığı qeyri-müəyyəndir. Belə anlaşılmazlıqlar məqalə boyu davam edir. Bütövlükdə, məzmun qeyri-obyektiv, qərəzli və qeyri-peşəkar tərtibatdan ibarətdir.**



Reportajı izləyərkən bəlli olur ki, müəllif Birinci Qarabağ müharibəsi dövründə Bakının müxtəlif hissələrində məskunlaşdırılmış məcburi köçkün ailələrinin yenicə bərpa olunan Füzuli şəhərinə qayıdışından bəhs edir. O, qeyd edir ki, Füzuli şəhərində indiyədək 258 ailə, yəni 928 nəfərin daimi məskunlaşması təmin edilib. Digər ailələr isə hələ də "çətin həyat sürərək gözləyirlər". Nəticə budur ki, Füzulidən məcburi köçkün düşmüş, Bakıda məskunlaşmış və indi geriyə köç növbəsini gözləyən sakinlərin durumu "Azadlıq" radiosunun əməkdaşını "rahatsız edirmiş".

Məqalənin başlığı kimi, onun məzmunu da, hətta müəllifin "səmimiyyəti" də saxtadır. Təkcə Füzulidən deyil, vaxtilə işğala məruz qalmış digər rayonlardan didərgin düşmüş, məcburi köçkünə çevrilmiş bütün ailələrin Bakıda oturub 30 il müddətində geri dönməyi gözləməsinin tək bir səbəbi vardır. O da Ermənistanın işğalçılıq siyasətinin davam etməsi, ABŞ başda olmaqla aparıcı dövlətlərin Ermənistanın bu hərəkətinə göz yumması, problemin həlli üçün Azərbaycana əsaslı dəstəyin göstərilməməsidir. "Azadlıq" radiosu obyektiv, peşəkar və səmimi olsaydı, heç olmasa bircə dəfə ABŞ siyasi elitasına sual ünvanlayar, Qarabağ probleminə 30 il müddətində "laqeyd" yanaşmalarının səbəbini soruşardı. Amma soruşmayıb. Soruşa da bilməz. Problemin kökü də buradan qaynaqlanır.

"Azadlıq" radiosu (Radio Free Europe/Radio Liberty (RFE/RL) — ABŞ Konqresinin maliyyələşdirdiyi qeyri-kommersiya təşkilatıdır. Onun təsis məramnaməsində qeyd edilir ki, Konqress tərəfindən maliyyələşdirilməsinə baxmayaraq, "müstəqil KİV qurumudur, informasiya siyasətində azaddır". Amma bütün fəaliyyəti bu təqdimatın əksinədir. Radio həmişə Konqresin siyasi kursuna tabe olub, siyasi konyukturaya uyğun davranıb, təqdimatda bir söz deyib, gerçəklikdə isə fərqli yol tutub. Yəni, mahiyyətləri riyakarlıq üzərində qurulub. Bunu isbatlamaq üçün kifayət qədər faktlar mövcuddur.

Çox da uzaq olmayan tarixdə – oktyabrın 14-də ABŞ Konqresindən Azərbaycanı hədəf alan dezinformasiya yayıldı. "Politico" nəşrinin yazdığına görə, ABŞ dövlət katibi Entoni Blinken Konqresə xəbərdarlıq edib ki, Azərbaycan yaxın həftələrdə Ermənistana hücum edə bilər.

"Ağ Ev" sonradan bu informasiyanı təkzib etməyə çalışdı. Sual yaranır: Əgər yayılmış xəbər dezinformasiyadırsa, ABŞ Konqressi onu "Politico" nəşrinə nə üçün sızdırıb? Azərbaycanı hədəfə çevirməkdə məqsədi nədir? "Azadlıq" radiosu səmimi və peşəkar davransaydı, bu sualları Konqres üzvlərinə və ya Konqres rəhbərliyinə ünvanlayardı. Amma buna təşəbbüs göstərmədi.

Əgər belə çaşqınlıq epizodik hal daşısaydı, Konqresdə ilk dəfə təzahür etsəydi, yaxud, "Azadlıq" radiosu ilk dəfə belə korafəhm davransaydı, bəlkə də məsələnin üzərindən keçmək olardı. Amma gedişat onu göstərir ki, ABŞ başda olmaqla Qərb ölkələrində Azərbaycana qarşı yönəlmiş dezinformasiya istehsalı sistemli hal alır. Problem 2020-ci ildə – 44 günlük mübaribə dövründə daha qabarıq şəkildə görünmüş, "Laçın yolu" kampaniyası fonunda davam etmişdi. 19 sentyabr-antiterror tədbirləri zamanı isə pik nöqtəyə çatmışdı.

44 günlük müharibə dövründə Azərbaycanın, guya, "suriyalı terrorçular"dan faydalanması barədə saxta xəbərlər yaydılar. Bu yalanlar Avropanın, Rusiyanın, İranın siyasi çevrələrinin dillərindən səsləndi. Qərb mediasının səhifələrində əks olundu. İddia öz təsdiqini tapmadı. Amma həmin saxta xəbərə görə üzr istəyən də olmadı.

Yaşadığımız günlərdə isə ölkəmizə qarşı yönəlmiş feyk xəbərlərin kəmiyyəti daha da çoxalıb. Azərbaycanı Qarabağ regionunda "etnik təmizləmə" prosesi həyata keçirməkdə ittiham edən xəbərlər yayılır. Fransa, Almaniya, ABŞ rəsmiləri faktsız-sübutsuz olsa da, Azərbaycanı "soyqırımı" və ya məcburi deportasiya aktında ittiham edirlər. Qərb KİV-ləri də həmin dezinformasiyaları geninə-boluna tirajlayırlar.

2024-cü ildə ABŞ-də keçiriləcək prezident seçkiləri üçün namizədliyini irəli sürən Vivek Ramasvami də Azərbaycana qarşı qərəzli ittihamlarla çıxış edib. O, təşviqat xarakterli müsahibəsində ermənilər tərəfindən Gəncə və Bərdə şəhərlərinə raket hücumunun kadrlarını nümayiş etdirərək izləyicilərə yalan məlumat verdi. Raket hücumuna məruz qalanların azərbaycanlılar deyil, ermənilər olduğunu bildirdi. Mövzu ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev də danışdı və videosüjeti sərt tənqid etdi. Amma nə "Azadlıq" radiosu, nə "Politico" nəşri, nə də başqa bir ABŞ KİV-ləri bu mövzuları gündəmə gətirmədilər, günahkarları sorğulamadılar.

ABŞ daxil olmaqla, aparıcı Qərb dövlətlərində istehsal olunan dezinformasiyalar təkcə Azərbaycanı deyil, bütün dünyanı narahat edir. Həmin dezinformasiyalar qlobal fəlakətlərə yol açır, bütövlükdə sivilizasiyanı təhdid edir. Bunu ABŞ-ın özündə də görürlər. Donald Tramp "Truth" sosial şəbəkə platformasındakı hesabında yazıb ki, "Prezident Co Baydenin yanlış siyasəti ABŞ-ı üçüncü dünya müharibəsinə yaxınlaşdırır".

Nüfuzlu "PolitiFact" platforması 2016-cı ildə "dezinformasiya"nı "ABŞ siyasətinin fenomeni" elan edib. "PolitiFact" bu nəticəyə gəlib ki, dezinformasiya Birləşmiş Ştatlar siyasətinin ayrılmaz elementinə çevrilib. Prezidentliyə namizədlər də, mövcud prezidentlər də bu alətdən yararlanırlar.

Məşhur tədqiqat mərkəzlərindən olan "Statista" isə mövzunu daha da konkretləşdirib. 2022-ci ildə keçirdiyi sorğunun nəticələri üzrə hazırladığı hesabatda qeyd edib ki, ABŞ-da ümumi informasiya dövriyyəsində feyk xəbərin payı 56 faizə çatır. Ən maraqlısı isə odur ki, sorğu iştirakçılarının 50 faizi "saxta xəbər" artımının kökündə ölkənin rəsmi dairələrinin dayandığını deyiblər.

İndiki dövrün ən böyük problemi odur ki, "saxta xəbərlər" ABŞ başda olmaqla, Qərb dövlətlərinin siyasi çevrələri tərəfindən istehsal olunurlar, transmilli KİV-lər tərəfindən tirajlanırlar. Dövrümüzdə mövcud olan qanlı münaqişələrin, müharibələrin də bir çoxu bu mənbədən qaynaqlanır. Yaxın Şərqdəki yeni müharibə qeyd edilən fikirləri bir daha təsdiqləyir.

Transmilli KİV-lərdən olan CNN HƏMAS-ın İsrailə hücumu zamanı 40 nəfər körpənin başının kəsilməsinə dair informasiya yaydı. Xəbər sürətlə Qərb KİV-lərinin manşetinə çıxdı, qlobal informasiya trendinə çevrildi. Zəlzələ effekti verən məsələ emosiyaları coşdurdu. Təkcə HƏMAS-ı deyil, bütövlükdə, Fələstin xalqını beynəlxalq ictimai rəyin hədəfinə çevirdi. Qəzzada həyata keçirilən qisas hücumlarına, mülki şəxslərin kollektiv şəkildə cəzalandırılmasına bəraət qazandırdı.

Amma oktyabrın 12-də yayılmış bu xəbər sonradan öz təsdiqini tapmadı. Bəlli oldu ki, körpələrin başının kəsilməsi barədə xəbər yalandır, reallığı əks etdirmir. Xəbərdə əksini tapmış iddiaları isbat etmək üçün əldə heç bir fakt yoxdur. CNN-in müxbiri Sara Sidner oktyabrın 14-də sosial şəbəkə hesablarında post paylaşaraq bildirdi ki, xəbəri legitim qurumlara və legitim şəxslərə, daha konkret desək, ABŞ prezidenti Co Baydenin nitqinə istinadla hazırlayıb. Sara yazır ki, "İstifadə etdiyim məlumatı İsrail Baş Nazirinin ofisində eşitdim. Sonra prezident Co Bayden bu faktları təsdiqləyən şəkilləri gördüyünü açıqladı. Mən də inandım. Amma bu gün İsrail hökuməti deyir ki, körpələrin başının kəsildiyini təsdiq edə bilməz. Ağ Ev də bəyan edib ki, Baydenə uşaqların başının kəsilməsinə dair heç bir fakt və sübut təqdim olunmayıb".

Amma İraqda kimyəvi silah tapılmadı. ABŞ isə öz səhvinə görə üzrxahlıq etmədi. Ümumən, ABŞ və Qərb siyasətçiləri 10 illərdir ki, oxşar hərəkətləri təkrarlayırlar. Bu gün də eyni "ampluadadırlar".

***Müşfiq ƏLƏSGƏRLİ,***
***Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti***

# Ermənistandan köçəköçdür

## Belə davam edərsə, bu ölkənin demoqrafik fəlakətlə üzləşəcəyi qaçılmazdır

*(əvvəli 1-ci səhifədə)*

Ermənistandan gedənlərin ölkə daxilində qeyri-müəyyən vəziyyətlə üzləşdiklərini əsas səbəb kimi göstərən Beglaryan, əslində, problemin humanitar deyil, siyasi xarakter daşıdığını söyləyib. Köçkünlər üçün zəruri şəraitin yaradılmadığına diqqəti yönəldən sabiq "dövlət naziri" indi fəsadları deyil, səbəbləri üzə çıxarmağın vacibliyindən danışıb. Onun gəldiyi "qənaətə" görə, problemin yaranmasında həm Ermənistan hakimiyyətinin, həm də beynəlxalq təşkilatların məsuliyyət yükü var. "İrəvan iqtidarının strateji məqsədləri yoxdur" – deyən Beglaryan fərziyələrində bir az da irəli gedərək köçkünlərin məcburiyyət qarşısında ölkədən getmək yolunu seçdiyi versiyasını irəli sürür və bu zaman "dərin məntiqli" interpretasiyaya baş vurur: "Onlar (Qarabağ köçkünləri – red.) könüllü surətdə assimilyasiya yolunu seçiblər. Mən isə onların vətənlərinə (?) beynəlxalq təminatlı (?) ən yüksək muxtariyyat (?) səviyyəsində dönmələrini görmək istərdim".

* * *

Hayastanın "Hraparak" qəzeti yazır ki, "dqr"ın səlahiyyətlərinə xitam vermiş "prezidenti" Samvel Şahramanyan yaxın günlərdə köçkünlər qarşısında çıxış etməyə və bir çox suallara aydınlıq gətirməyə hazırlaşır. Onun "rəiyyətinə" nələri danışacağını, hansı sualları cavablandıracağı Bakı üçün qətiyyən maraqlı deyil.

Bu arada "CivilNet"-ə müsahibə verən Ermənistan Respublikası Təhlükəsizlik Şurasının sabiq katibi Samvel Babayan "artsax"– Azərbaycan danışıqlarının bərpa olunması ehtimalının sıfır faiz olduğunu açıqlayıb.

"Həm Azərbaycan, həm də Ermənistan danışıqların bərpasına meyilli deyil. Vaxt keçdi və tam aydın oldu ki, bu məsələdə heç kim maraqlı deyil və səhifə bağlandı"– deyən Babayan daha sonra "artsax respublikası"nın buraxılmasının hüququ nöqteyi-nəzərrənın qaçılmaz olduğunu deyib: "Ermənilərin Ermənistanda normal yaşaması üçün bütün imkanları bağlayan hakimiyyət günahkardır. Bu, milli faciədir".

* * *



Separatçı sabiq çinovnik bununla da kifayətlənməyərək, hazırda Ermənistanda müşahidə edilən humanitar böhranı "Azərbaycan tərəfindən anti-erməni siyasətinə söykənən soyqırımının (?) nəticəsi" kimi dəyərləndirir. Amma Beglaryan öz çıxışında tənqid hədəfi kimi daha çox İrəvan iqtidarını seçir: "Ermənistan hakimiyyəti yalnız özünün şəxsi tələbatlarını həll etməklə məşğuldur. Hərçənd problemə artsax xalqının (?), onların kollektiv hüquqları (?) nöqteyi-nəzərindən yanaşmaq lazımdır".

Son bir ay ərzində Ermənistan hakimiyyəti tərəfindən köçkünlərə maliyyə yardımının ediləcəyi ilə bağlı vədlərin verilməsinə baxmayaraq, Qarabağ ermənilərinin ailəbaşına cəmi 100 min dram verildiyini bəyan edən Beglaryan hökumətdən köçkünlərin çoxsaylı ehtiyaclarını ödəməkdən ötrü böyük həcmdə maliyyə vəsaitinin ayrılmasını tələb edib. O, çıxışında problemin həlli üçün qərarların Dağlıq Qarabağın (?) nümayəndələrinin rəyi nəzərə alınmadan qəbul olunduğunu diqqətə çatdırıb.

Beləliklə, tarixin arxivinə göndərilmiş "artsax"ın keçmiş çinovniki ölkədən gedənlərin armasınının səbəbini Paşinyan hakimiyyətinin yarıtmaz idarəetmə sistemində görür. Amma, bu hay ağlının ucundan da keçirmir ki, qonşunun torpağına göz dikən, orada ikinci Ermənistan dövləti yaratmaq istəyən, separatizm xəstəliyinə yoluxmuş toplumun aqibəti başqa cür ola bilməzdi. Ona görə də günahkarı kənarda deyil, öz içərinizdə, daha doğrusu, daşnakların utopik iddialarla zəhərlədikləri beyninizdə axtarın. İndi xoşbəxtliyini xaosun hökm sürdüyü Ermənistanda deyil, başqa ölkələrdə arayan gəncləri isə qınamağa haqqınız yoxdur.

Hələ bir il bundan əvvəl Ermənistanın müxalif "Çiçəklənən Ermənistan" partiyasından millət vəkili Naira Zohrabyan "Vestnik Kavkaza"ya müsahibəsində bunları bildirmişdi: "Hava limanından indi gəldim. Vəziyyətin nə yerdə olduğunu görmək istədim. Siz təsəvvür belə edə bilməzsiniz ki, vəziyyət nə dərəcədə gərgin idi. Əksəriyyət Moskvaya birtərəfə gediş üçün bilet alır. Biletin qiyməti isə 800-900 dollara qalxıb. Rusiyaya uçuşlara heç vaxt belə tələbat olmamışdı. Ermənistan son 30 ildə ən böyük miqrasiya ilə qarşılaşacaq. Hətta keçən əsrin 90-cı illərində belə bir şey yox idi". N.Zohrabyan belə rekord sayda miqrasiyanın səbəbini izah edib: "Birincisi, müharibədir. İkincisi, ermənilər artıq öz ölkələrində özlərini təhlükəsizlikdə hiss etmirlər. Üçüncüsü və ən əsası isə Ermənistanda iqtisadi vəziyyətin acınacaqlı olmasıdır".

O, Ermənistanda demoqrafik böhrandən baş vermədiyini iddia edib.

Təxminən, bir il əvvəl rəsmi İrəvanın emissarı qismində Xankəndiyə göndərilən və buradakı separatçı-revanşist xunta rejiminin başında duran hay quldurlardan fərqli bəyanatlar səsləndirən S.Babayanın heç bir məntiqə sığmayan izahını şərh etməyə dəyməz. Sadəcə onu xatırlatmaq istərdik ki, "dqr"in bir qurum olaraq buraxılması və bütün "atributlarının" ləğv edilməsi, "səlahiyyət sahiblərinin" fəaliyyətinə xitam verilməsi barədə sərəncamı həmin Samvel Şahramanyan imzalayıb. Artıq üzərində Azərbaycanın üçrəngli bayrağının dalğalandığı Xankəndiyə onlar yalnız turist qismində gələ bilərlər. Onda isə müvafiq viza əli soydaşlarımızın qanına bulaşmayan, Qarabağımızda törədilən hərbi cinayətlərdə iştirak etməyən ermənilərə verilə bilər. Amma o vaxta qədər hələ çox sular axıb durulmalıdır.

* * *

Sonda mövzunun yekunu olaraq oxucuların diqqətinə onu da çatdırmaq istərdik ki, üzləşdikləri bütün çətinliklərdə Azərbaycanı günahlandırmağa çalışan Hayastan və onun xaricdəki dəstəkçiləri boş yerə özlərini yormasınlar. Bu gün özünün gələcəyə yönəlik inkişaf yolunu tutmuş, heç kimin işinə qarışmayan və özgə torpağında gözü olmayan, hayların xarabazara çevirdiyi torpaqlarına yenidən həyat gətirməyə çalışan Azərbaycan, nədənsə, bəzilərinin gözünə ox olub batır. Əlbəttə ki, Qərb ikiüzlüdür. Birinci dəfə deyil ki, bunun şahidi oluruq. Otuz il buna dözdük, fəqət 44 günlük müharibənin dəyişdiyi reallıqlar fonunda Azərbaycanla fərqli davranmalı olan güclər yenə Cənubi Qafqazda baş verənləri öz arşınları ilə ölçməyə üstünlük verirlər. Onların Azərbaycana qarşı son vaxtlar aşkar sezilən koalisiyalı "səlib yürüşlərinin" səbəbi yalnız Qarabağı könüllü tərk etmiş bir ovuc erməniyə qahmardurma istəyi deyil. Cəmi iki ay bundan əvvəl Brüssel və Vaşinqtondan İrəvana tuşlanan qınayıcı nəzərlər indi Bakıya tərəf yönəlib. Onlar indi Ermənistandan da köçüb getməyə üstünlük verən Qarabağ erməniləri üçün Azərbaycan hakimiyyətindən güzəşt, həm də "muxtariyyətli" güzəşt istəyirlər. Rəsmi Bakının bu məsələdə nümayiş etdirdiyi qətiyyət və güzəştsiz mövqe həmin neoimperialist, ermənipərəst güclərin xoşuna gəlmir. Çünki mövcud reallığı qəbul etməyi və onunla barışmağı özlərinə sığışdıra bilmirlər. Ortada sadəcə vaxt amili var. Bütün dünya kimi, onlar da gec-tez reallıqla barışacaqlar.

***İmran BƏDİRXANLI***
***XQ***

**Replika**

# ABŞ üçün "hind istiotu"

## *Ramasvami niyə Azərbaycanla bağlı münəccimlik edir?*

**Kapitalizmin qızğın tərəfdarı və müdafiəçisi qismində çıxışlar edən respublikaçı Vivek Ramasvami "Bakının Qarabağı ermənilərdən təmizlədikdən sonra Ermənistanı da yarıya bölməyə hazırlaşdığını" bəyan edib. Hind əsilli amerikalı sahibkar, 2024-cü ildə Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizədliyini irəli süməyə hazırlaşan "siyasi texnoloq" Ağ evin Cənubi Qafqaz siyasətini kəskin tənqid atəşinə tutub: "Bizim xarici diplomatiya isteblişmentimizin 20 il ərzində Azərbaycandakı rejimə Amerika silahına yiyələnməsinə icazə verməsini fikirləşəndə ürəyim bulanır. İndi həmin silahdan xristian-erməniləri öldürmək üçün istifadə olunur".**



Dünyanın supergücünün sükanı arxasına keçməyi hədəfləyən, "xristian təəssübkeşi" rolunu oynamağa girişən buddist biznesmen Ramasvaminin ürəyinin həqiqətən, Ağ Evin yanlış xarici siyasətindənmi, yoxsa qarışıq hind ədviyyatından izafi istifadə etdiyinə görə bulandığını deyə bilmərik, amma siyasi mətbəxə bələdliyinin sıfırın altında olduğu şəksizdir. Hər halda, onun Azərbaycanla bağlı diletant açıqlamaları belə düşünməyə tam əsas verir. Buddistin düşüncəsinə görə, Bakı Ermənistana hərbi təcavüzlə bağlı gizli "Ы" əməliyyatı planlaşdırıb və tezliklə bu ölkənin ərazisinin yarısını qoparıb özününkünə qatacaq.

Birjada və biotexnika sahəsində biznesi qəfil çiçəklənən və 30 yaşında milyarderə çevrildiyi deyilən hindistanlı Ramasvaminin "hərbi-strateji" xarakterli proqnozları da böyük maraq doğurur: "İndi eşidirk ki, Azərbaycan Dağlıq Qarabağda (?) etnik təmizləmə ilə kifayətlənməyəcək, ardınca Türkiyə ilə birləşmək üçün Zəngəzur dəhlizini də ələ keçirəcək".

Doğrudan da, "hərbi-strateji" nöqteyi-nəzərdən olduqca maraqlı versiyadır. Qalır bu versiyanı prezidentlik iddiasına düşmüş 38 yaşlı respublikaçı biznesmenin beyninə kimin və ya kimlərin saldığını güman etməyə. Əlbəttə ki, 1-ci yerdə ABŞ-dakı erməni diasporu, Kaliforniyadakı zəngin erməni lobbisi və onların satın aldığı respublikaçı senator və konqresmenlər versiyası gəlir.

Birləşmiş Ştatların üzləşdiyi sosial-iqtisadi problemlərin həllini kapitalizmin inkişaf etdirilməsində görən Vivek Ramasvami dünyada hər şeyin pulla satın alına biləcəyinə inanan yeni nəslin nümayəndəsidir. Onun Senatın "Azadlığa dəstək Aktı"na 907-ci düzəlişə əlavə ilə bağlı Ağ evin ünvanına dediyi ittihamları da elə bu düşüncənin "məhsuludur": "Əgər Azərbaycan pulun müqabilində Vaşinqtonda böyük lobbi hakimiyyətini ələ ala bilməsəydi, həmin 907-ci düzəlişə əlavəni heç vaxt Senatdan keçirə biməzdi. Belə ciddi məsələyə bu qədər diqqətsizlik adamı şoka salır. İkiüzlülük isə sadəcə heyrətləndirir".

Prezidentlik uğrunda yarışda, təbliğat kampaniyasında müxtəlif üsullardan, rəqiblərinə qarşı "kompramat"lardan istifadə olunması başadüşüləndir. Amma ABŞ kimi nəhəng dövlətin ali postuna iddialının bu kampaniyada ayağının belə dəymədiyi bölgədə baş verənlər və "günahkarlar" barədə məsuliyyətdən uzaq, boğazdan yuxarı açıqlamalar verməsi təsadüf sayıla bilməz. Axı, bu cür seçkiqabağı təbliğat taktikasının yalnız ABŞ-dakı erməni lobbisinin və İrəvanın işinə yaradığı aşkar görünür. Bu halda ilk ağıla gələn dünyaya pulun hakimlik etdiyini düşünən biznesmenin özünün pulla satın alınması versiyasıdır. Əslində, bu, Ramasvaminin Bakının ünvanına üfürdüyü uydurma və avantürist bəyanatları ilə müqayisədə daha real və məntiqi versiyadır.

***İ.HƏSƏNQALA***
***XQ***

# Heydər Əliyev: “Gürcüstan burada yaşayan soydaşlarımızın vətənidir”



**Ümummilli lider Heydər Əliyev qədim Borçalını ulu türk yurdu sayırdı. Ulu Öndər Gürcüstan ərazisindəki milli-mənəvi dəyərlərimizin, etnik-mədəni irsimizin qorunmasını və yaşadılmasını müstəqil Azərbaycanın dövlət siyasəti səviyyəsinə qaldırmış və bu sahədə əsaslı tədbirlər həyata keçirmişdi. Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri İsak Novruzovla III söhbətimiz bu barədədir.**

***– Ümummilli lider Heydər Əliyevin tapşırığı ilə Mirzə Fətəli Axundovun evinin, Nəriman Nərimanovun ata mülkünün geri alınması və xalqımıza qaytarılması Gürcüstandakı tarixi və mədəni irsimizin qorunub-yaşadılması baxımından önəmli hadisələr oldu.***

– İndiki Gürcüstanda Azərbaycanın tarixi şəxsiyyətlərini axtarıb tapmaq, yenidən dəyərləndirmək, hər şeydən əvvəl, keçmişimizə dərin hörmət və bu yerlərdəki tarixi haqqımıza sahib çıxmaq deməkdir. Onları gənclərə yaxından tanıtmaq, hüquqlarını bərpa etmək, haqsız olaraq repressiya qurbanları olduqlarını sübuta yetirmək, xalq işi naminə fəaliyyətlərinə bəraət qazandırmaqla bağlı Ulu öndər Heydər Əliyevin atdığı addımlar misilsiz bir fədakarlıqdır.

Müstəqillik illərində Ümummilli liderin birbaşa göstərişi və nəzarəti ilə Gürcüstanda yaşamış tarixi şəxsiyyətlərimizin mülkləri müxtəlif yollarla onlara sahib olmuş ermənilərdən alınaraq özəlləşdirildi. Daha sonra onların yüksək səviyyədə əsaslı təmiri aparıldı. Doğrudan da, Mirzə Fətəli Axundovun evinin Heydər Əliyevin tapşırığı ilə geri alınması və bundan sonra ev-muzeyinə və mədəniyyət mərkəzinə çevrilməsi böyük tarixi-mədəni hadisədir.

Azərbaycanın görkəmli dövlət xadimi və ədibi Nəriman Nərimanov Tiflisdə doğulub. Onun boya-başa çatdığı bina babası Kərbəlayi Allahverdinin mülkü olub. Qədim müsəlman məhəlləsindəki bu binanı o, oğlu Nəcəf – Nəriman Nərimanovun atası üçün tikdirib. Rus imperiyası Gürcüstanı da işğal edəndən sonra bu mülk də sahiblərini dəyişdi, əldən-ələ keçdi. Ulu öndərin tapşırığı ilə bu binada da yenidənqurma işləri aparıldı, tikili yüksək səviyyədə təmir olundu. Nəriman Nərimanovun ruhuna ehtiram əlaməti olaraq indi burada onun ev-muzeyi yerləşir.

Azərbaycan milli mətbuat tarixinin görkəmli nümayəndəsi, böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin redaktorluğu ilə Tiflisdə ərsəyə gəlmiş məşhur “Molla Nəsrəddin” jurnalının çap olunduğu “Qeyrət” mətbəəsi də geri qaytarıldı.

Bunlardan başqa, 2001-ci ilin avqustunda daha bir tarixi şəxsiyyətin – Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, şair-pedaqoq Abdulla Şaiqin 120 illik yubileyi ərəfəsində onun da unudulmuş ünvanı bərpa edildi. Marneuli (Sarvan) rayonunda, şairin dədə-baba ocağında ev-muzeyinin açılışı oldu və həmin küçəyə Abdulla Şaiqin adı verildi.

***– Heydər Əliyev Tbilisidə ana dilimizdə çıxan “Gürcüstan” respublika qəzetinin fəaliyyətini davam etdirməsinə də qayğı və diqqət göstərib. Hətta Gürcüstana səfərində Naxçıvanda blokada şəraitində yaşayarkən bu qəzetin əməkdaşlarının onunla görüşlərini, müsahibə alıb dərc etmələrini də məmnunluqla xatırlayıb.***

– Vaxtı ilə “Sovet Gürcüstanı” adı ilə nəşr edilən qəzetin böyük ənənələri olub. Bu nəşr Gürcüstanda Azərbaycan dilində nəşr edilən ən uzunömürlü respublika qəzeti olub. 2 il əvvəl 100 yaşı tamam oldu. Azərbaycan və Gürcüstan arasında mənəvi körpü olan qəzet 1990-cı ildən nəşrini “Gürcüstan” adı ilə davam etdirir. Qəzet ölkələrimizin müstəqilliyi dövründə də Gürcüstanda milli-mənəvi dəyərlərin yaşadılması, iki xalq arasında dostluğun möhkəmləndirilməsi ideallarına öz töhfələrini verməkdə davam edir. Gürcüstanın dövlət nəşrlərindən biri kimi bu qəzetin fəaliyyətinə yüksək önəm verilir. Çünki Ulu öndər belə istəyirdi və gürcülər də bunu yaxşı bilirlər.

1996-cı ildə Gürcüstana səfəri zamanı Ulu öndər nəşrin Azərbaycan üçün əziz olduğunu qeyd etdi, onun Gürcüstan və Azərbaycan dövlətləri, eləcə də iki xalq arasında əlaqələrin inkişaf etdirilməsində gərəkli xidmətlər göstərdiyini bildirdi. Heydər Əliyev Naxçıvanda yaşayarkən onu unutmadıqlarını xatırlayaraq dedi: “O vaxt mənim üçün bu, böyük mənəvi dayaq idi. Mən Naxçıvanda sürgündə idim, bir tərəfdən gürcülər, o biri tərəfdən Gürcüstanda yaşayan azərbaycanlılar məni unutmamışdılar. Bunu qəzet vasitəsilə etmişdilər. Ona görə də “Gürcüstan” qəzetini yaşatmaq lazımdır. Mən böyük vəd verən adam deyiləm. Ancaq bu gün bəyan edirəm ki, “Gürcüstan” qəzetinin yaşaması, mütəmadi çıxması üçün Azərbaycan dövləti və şəxsən mən lazımi tədbirlər görəcəyik”.

Prezident Heydər Əliyevin həmin səfəri zamanı “Gürcüstan” qəzetinin nəşri dayanmışdı. Ulu öndər qəzetin fəaliyyətinin bərpa olunmasının vacibliyini qeyd edəndən sonra redaksiya qəzet kağızı, kompüter dəsti ilə və digər lazımi avadanlıqlarla təmin edildi. Redaksiya əməkdaşlarının iş şəraiti yaxşılaşdırıldı, mətbəə-maliyyə xərclərinə yardım edildi. Beləliklə, “Gürcüstan” qəzetinin fəaliyyəti bərpa edildi.

***– İsak müəllim, vaxtı ilə Tiflisdə erməni daşnakların qətlə yetirdiyi siyasi xadim Fətəli Xan Xoyskinin qəbrinin tapılması və Tbilisi Botanika bağının ərazisində yerləşən müsəlman qəbirstanlığında dəfn edilməsi də Ulu öndərin adı ilə bağlıdır.***

– Bu barədə vaxtı ilə mərhum Aslan Aslanov mənimlə belə bir söhbət eləmişdi: “1996-cı ilin soyuq qış günlərindən birində Tbilisiyə növbəti yardım apardıqdan sonra Şəmkirə qayıtmağa hazırlaşırdıq. Bildirdilər ki, yaşlı bir qadın mənimlə görüşmək istəyir. Bu qadınla söhbət zamanı məlum oldu ki, o, Fətəli Xan Xoyskinin dəfn edildiyi yerin harada olduğunu bilir. O dedi ki, Fətəli Xan Xoyskini o zaman Şeyx Sənan dağının ətəyindəki qəbiristanlıqda, mənim qardaşımın yanında basdırıblar. Sonra qadın gedib həmin yeri göstərdi. Sonra bildirdi ki, əgər buradakı ermənilər bilsələr, Xoyskinin qəbrini dağıdarlar, bu məsələni cənab Heydər Əliyevin bilməsi çox vacibdir”.

Həmin gün axşam Heydər Əliyevlə əlaqə saxlayıb Gürcüstanla bağlı tapşırıqlarının icrası ilə əlaqədar ətraflı məlumat verdim, sonda cənab Prezidentə yaşlı qadın müəllimin dediklərini də çatdırdım. Heydər Əliyev soruşdu ki, bu məsələdən səndən başqa daha kimin xəbəri var? Cavab verdim ki, sürücümün və daha iki nəfərin. Heydər Əliyev yenə soruşdu ki, yorulmamısan? Dedim ki, xeyr.

Ulu öndər dedi: “Elə isə geri qayıdıb, deyilən yeri nəzarətə götürün ki, dəyib-toxunan olmasın. Səhər isə Tbilisi Cümə məscidinin axundunu götürüb, müsəlman adət-ənənəsi və deputatlarımızın iştirakı ilə Xoyskinin qəbrinin M.F.Axundovun büstünün yanına köçürülməsini təmin edin. Xoyskiyə xüsusi məhəbbətim olduğu üçün qəbirüstü abidənin açılışında özüm iştirak edəcəyəm”.

Aslan müəllim elə həmin gecə Tbilisiyə qayıtmışdı və Xoyskinin qəbrini səhəri gün deyilən yerə – M.F.Axundovun büstünün yanına köçürmüşdü. Qəbirüstü abidənin açılışında isə Heydər Əliyev özü iştirak etdi. Büstün açılış mərasimində onunla birlikdə Gürcüstan prezidenti Eduard Şevardnadze və digər dövlət rəsmiləri də iştirak etdilər.

Sonralar Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, habelə Fətəli Xan Xoyskinin qəbirüstü abidələrinin əsaslı bərpası həyata keçirildi və orada xiyaban yaradıldı. Bu həm də varislərinin Heydər Əliyev ideyalarına sadiqliyinin nümunəsi idi.



***– Ötən ay Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfəri göstərdi ki, iki ölkənin dostluq münasibətləri Ulu öndərin istədiyi kimi, onun müəyyən etdiyi yolla davam edir. Bu münasibətlərinin inkişafı regiona da böyük perspektiv vəd edir. Böyük gələcəyi ola bilən Qafqaz evinin əsası iki xalqın dostluğu ilə qoyulub.***

– Böyük fəxr hissi ilə deyə bilərəm ki, xalqlarımızın təhlükəsizliyinin və iqtisadi əlaqələrimizin sarsılmaz bünövrəsini dünya şöhrətli siyasətçi Heydər Əliyev qoyub. Ulu öndər deyirdi ki, Gürcüstan burada yaşayan azərbaycanlıların tarixi vətənidir, Gürcüstan da onların dövlətidir. Müasir və müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Gürcüstan–Azərbaycan dostluq münasibətləri uğurla davam etməkdədir.

Prezidentlər Heydər Əliyevin və Eduard Şevardnadzenin əsasını qoyduğu strateji əməkdaşlıq keçən müddətdə bütün sahələr üzrə davam edib. Bu gün Gürcüstanla Azərbaycanı tarixi özüldən əlavə, Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TRASEKA, Bakı–Tbilisi–Qars və Trans–Anadolu Qaz Boru Kəməri kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Qeyd olunan layihələr ölkələrimizi bir-birinə strateji cəhətdən bağlayır.

Görkəmli dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin qonşu Gürcüstan Respublikası və orada yaşayan soydaşlarımızın qayğı və problemləri ilə bağlı siyasi kursu bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Vaxtı ilə Ulu öndərin yaxın dostu, böyük ictimai-siyasi xadim Eduard Şevardnadze deyirdi: “Bu gün Heydər Əliyevin işini və ölkələrimizin qardaşlıq ənənələrini onun oğlu – böyük ziyalı, gənc dövlət xadimi İlham Əliyev davam etdirir. O, atasının irsinə dəyərli şəkildə başçılıq edir və Azərbaycanda, eləcə də Gürcüstanda böyük inam və nüfuz qazanıb”.

Mən həm Gürcüstan parlamentinin deputatı, həm də nazir müavini olanda Prezident İlham Əliyevlə dəfələrlə görüşmüşəm, hətta iki dəfə şəxsən qəbulunda olmuşam. Doğrudan da, o, atasının irsinə layiqli şəkildə sahiblik edir. Məhz onun səylərinin nəticəsidir ki, Azərbaycan–Gürcüstan münasibətləri və qardaşlığı təkcə bu iki dövlətin deyil, eyni zamanda, digər region ölkələrinin inkişafına, regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir.

Azərbaycan lideri İlham Əliyev Gürcüstan nümayəndə heyəti ilə görüşlərinin birində demişdir: “Ölkələrimiz arasında münasibətlərin tarixi çox qədimdir. Xalqlarımız həmişə yanaşı, qonşuluqda, sülh və mehribanlıq şəraitində yaşamış, həmişə bir-birinə kömək etmişlər. Bu gün iki müstəqil dövlətin inkişafına, əməkdaşlığa və həm təhlükəsizliyimizi, həm də iqtisadi firavanlığımızı təmin edən, qlobal dünya prosesləri üçün böyük əhəmiyyətə malik olan layihələrdə iştirakına kömək edən münasibətlərin təməli budur”.

***– Həyat göstərir ki, qonşuluq siyasətində ədalətli münasibət və səmimi olmaq əlaqələrin inkişafında önəmli amilldir.***

– Bəli, belədir, biz həmişə qonşularımızdan da, dünya ictimaiyyətindən də özümüzə qarşı ədalətli münasibət gözləmişik. Azərbaycan ərazi butövlüyünü bərpa etmək üçün səfərbər olanda onu dəstəkləyən dövlətlər sırasında Gürcüstan da var idi. Gürcüstan dövləti Ermənistana silah daşıyan dövlətlərlə hava və quru nəqliyyat yollarını bağladı, bununla həm də bölgədə sülhün tərəfdarı olduğunu təsdiqlədi. Xoş niyyətlər, qardaşlıq və dostluq amalları ilə birləşən iki qonşu ölkə arasında münasibətlər bundan sonra da inkişaf edəcək və hər iki xalqın maraqlarının təmin olunması üçün daha böyük perspektivlərin və əməkdaşlıq əlaqələrinin açılmasına geniş şərait yaradacaq.

Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməklə cəbhədə əldə etdiyi qələbələr Gürcüstandakı azərbaycanlılar tərəfindən böyük sevinclə və ruh yüksəkliyi ilə qarşılandı. Xaricdə, eləcə də Gürcüstanda yaşayan azərbaycanlılar bu nailiyyətlərə görə Prezident, Ali Baş Komandan İlham Əliyevin səylərini, yorulmaz fəaliyyətini yüksək qiymətləndirirlər. Biz qədim Borçalı əhalisi həmişə onun yanında olduğumuzu bildiririk.

Azərbaycanın müdrik və qüdrətli Prezidenti İlham Əliyev Ulu öndərin siyasi kursunu uğurla davam etdirir. Əslində, biz hamımız bu yolun davamçılarıyıq. Azərbaycanla bağlı hər şey bizim üçün əziz və müqəddəsdir. Bundan sonra da ölkələrimiz arasında əsrlər boyu mövcud olmuş dostluq münasibətlərini daim yaşatmağa çalışacağıq. Heydər Əliyevin nurlu xatirəsi isə Gürcüstan azərbaycanlılarının və gürcü xalqının yaddaşından heç vaxt silinməyəcək.

***Söhbəti hazırladı:***
***Namiq ƏHMƏDOV***
***XQ***

**Bakı – Tbilisi – Bakı**

# “Bir millət, iki dövlət” forumu



**Naxçıvanda Türkiyə – Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi, Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsi və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Sarayında “Bir millət, iki dövlət” forumu keçirilib.**

Ümummilli lider Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyəti yaradılmasının 100 illiyinə həsr olunmuş məclisdə hər iki tarixi hadisənin fonunda ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlığın dünyada misilsiz bir örnək olduğunu əks etdirən filmlər nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli forumu açaıq elan edərək bildirib ki, milli liderlərimiz Heydər Əliyevin və Mustafa Kamal Atatürkün müəyyənləşdirdiyi, bu gün isə hər iki ölkə prezidentlərinin iradəsi ilə davam və inkişaf etdirilən Azərbaycan – Türkiyə qardaşlığı forumun əsas mövzusudur. Böyük Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir” kəlamını “Bir millət, iki dövlət” fəlsəfəsi ilə yeni mərhələyə yüksəldən Ümummilli lider Heydər Əliyev xalqlarımızın milli-mənəvi dünyasının bir-biri ilə sıx bağlılığını Azərbaycan – Türkiyə əlaqələrinin inkişafında əsas amil kimi kimi dəyərləndirib.

Türkiyə Respublikasının Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə – Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri Aygün Attar, Milli Məclis sədrinin müavini Adil Əliyev, “TÜRKSOY”un baş katibinin köməkçisi Seyid Yusif, Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri, professor Hicran Hüseynova, İğdır valisi Ərcan Turan çıxışlarında bildiriblər ki, hər iki yubileylə bağlı birgə təntənələr, söylənən təbriklər, ifadə edilən arzular xalqlarımızın məslək və hədəflərinin ortaqlığını bir daha nümayiş etdirir. Qeyd edilib ki, tarixi sınaqlardan çıxmış, dünyada bənzərim olmayan münasibətlərin yüksək səviyyədə davam etdirilməsi ölkələrimizin daha da qüdrətlənməsinə, xalqlarımızın ortaq maraqlarına xidmət edir.

Foruma onlayn qoşulan Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəisi, professor Fəxrəddin Altun dövlət başçılarının Naxçıvan görüşündə nəqliyyat və enerji sahələrində əldə olunan yeni razılaşmaların Zəngəzur dəhlizi ilə daha da inkişaf edəcək münasibətlərimizdə yeni meydan açacağını diqqətə çatdırıb.

Forum Türkiyənin Girəsun Universitetinin beynəlxalq əlaqələr şöbəsinin müdiri, professor Yalçın Sarıkayanın moderatorluğu ilə “Zəngəzur dəhlizi və bölgəyə təsiri” adlı panel müzakirələri ilə davam edib.

***XQ***

# “Naxçıvandan başlanan yol”

**Dünən Naxçıvanda Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Naxçıvandan başlanan yol” mövzusunda konfrans keçirilib.**




Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli məclisdə çıxış edərək bildirib ki, Ulu öndər ölkəyə rəhbərliyinin hər iki dövründə gerçəkləşdirdiyi müdrik və uzaqgörən siyasətlə Azərbaycanı bütün sahələrdə inkişafa qovuşdurub, dünyada tanınıb. O, geniş milliləşmə siyasəti ilə mənəvi dəyərlərimizi də dirçəldib, ölkəni və xalqı müstəqillik epoxasına hazırlayıb.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın müstəqilliyinin təməli məhz ötən əsrin 90-cı illərində Naxçıvanda atılıb. Sonrakı dövrlərdə ümummilli liderin siyasi irsinə sadiqlik Azərbaycanı regionda və beynəlxalq miqyasda lider dövlətə çevirib. Prezident İlham Əliyevin çoxvektorlu, qətiyyətli siyasəti nəticəsində bütün sahələrdə davamlı inkişafa, o cümlədən, ölkə iqtisadiyyatında misilsiz yüksəlişə nail olunub.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev, Naxçıvanın iqtisadiyyat naziri Tapdıq Əliyev və kənd təsərrüfatı nazirinin müavini edən Xəyalə Dadaşova, Mərkəzi Bankın Naxçıvan İdarəsinin sədri Elçin Əliyev Ümummilli liderin yaratdığı tarixi əsaslar üzərində son 20 ilin Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü olduğunu bildiriblər.

Konfransd, Ulu öndər Heydər Əliyevin mənalı ömür yolunu və zəngin fəaliyyətini əks etdirən film nümayiş etdirilib.

***XQ***

# Beynəlxalq Forumda Azərbaycanın regiondakı rolu xüsusi qeyd olunub

**Oktyabrın 26-da Tbilisidə 4-cü İpək Yolu Beynəlxalq Forumu keçirilib.**

Tədbirdə 60-a yaxın ölkədən yüksəkvəzifəli rəsmi şəxslər, xarici özəl sektor təmsilçisi də daxil olmaqla, 2000-ə yaxın nümayəndə iştirak edib.

Forumun əvvəlində nümayiş etdirilən sənədli filmdə Azərbaycan, Gürcüstan və Türkiyənin birgə iştirakı ilə həyata keçirilən Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz, Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin, eləcə də Qara dənizin dibindən keçəcək kabelin dünya ölkələri üçün də əhəmiyyətindən bəhs olunub.

Qeyd edək ki, Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin himayəsi ilə keçirilən Forumun əsas məqsədi İpək Yolu təşəbbüsünün təmsilçiləri, beynəlxalq təşkilatlar və özəl sektor nümayəndələri üçün əməkdaşlığın, beynəlxalq və regional ticarət əlaqələrinin dərinləşdirilməsi perspektivlərinin müzakirəsi məqsədilə platforma yaratmaqdır.

Tədbir Avropa və Asiya ölkələri arasında ticari-iqtisadi, siyasi və mədəni əlaqələrin möhkəmləndirilməsi baxımından ən yaxşı imkanlardan biri hesab edilir.

Beynəlxalq tədbirdə Azərbaycanın Baş naziri Əli Əsədovun rəhbərliyi ilə böyük nümayəndə heyəti iştirak edir. Tədbirə, həmçinin Monteneqro və Ermənistanın hökumət başçıları da qatılıblar.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili son illər İpək Yolunun inkişafı, irimiqyaslı enerji, nəqliyyat və logistik layihələrin inkişaf perspektivləri və gələcəkdə görülməsi vacib tədbirlər barədə danışıb, regionda sülhün və sabitliyin vacibliyini xüsusi qeyd edib.

Azərbaycanın Baş naziri Əli Əsədov çıxışında dünyada baş verən son dəyişikliklər fonunda iqtisadi əməkdaşlıq və nəqliyyat bağlantıları ilə əlaqədar yaranan çağırışların forumun region və bütün dünya üçün əhəmiyyətini daha aydın şəkildə göstərdiyini vurğulayıb. Əli Əsədov bildirib ki, Azərbaycan və Gürcüstan tarixən Avropa ilə Asiya arasında iqtisadi-ticari əlaqələrdə oynadıqları körpü rolunu bu gün də davam etdirməkdədir.

Qeyd edilib ki, Azərbaycan və Gürcüstan 1990-cı illərin sonlarında Böyük İpək Yolunun bərpası konsepsiyasını ilk dəstəkləyən ölkələrdən olmuşlar.




Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın keçirilməsi təşəbbüsünə ilk qoşulan Gürcüstanın ovaxtkı Prezidenti Eduard Şevardnadze olmuş, həmin mötəbər konfrans 1998-ci ildə 9 ölkənin dövlət başçısının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə Bakıda keçirilmişdi. Konfransın yekununda Avropa İttifaqının TRACECA Proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmışdı.

Baş nazir Azərbaycanın regional nəqliyyat dəhlizinin inkişafı üçün gördüyü işləri qeyd edib və müsbət nəticələrin əldə olunduğunu vurğulayıb. Bildirib ki, Qazaxıstandan Gürcüstan limanlarına çatdırılma müddəti ötən illərlə müqayisədə əhəmiyyətli dərəcədə azalıb. Növbəti il üçün hədəf bu müddəti iki dəfəyə qədər (11–15 günə) endirməkdir. Bundan əlavə, bu dəhliz dünya miqyasında ən təhlükəsiz və operativ dəhlizlərdən birinə çevriləcək. Orta Dəhlizin potensialı dəmir yolları ilə yanaşı, limanların yükaşırma qabiliyyəti ilə də sıx bağlıdır. Bu baxımdan, Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal iş aparılır. Gürcüstanın Poti və Batumi limanları da Orta Dəhlizin mühüm elementləridir. Eyni zamanda, Azərbaycanın Gürcüstanın Qara dəniz sahilində yerləşən Kulevi limanının genişləndirilməsi də Orta Dəhlizin fəaliyyətinə töhfə verəcək.

Azərbaycanın Baş naziri Gürcüstanın da bu istiqamətdə gördüyü işlərin təqdirəlayiq olduğunu qeyd edib. Bildirib ki, Gürcüstanda dəmir yolları müasirləşdirilir, limanlar inşa olunur və genişləndirilir, yol infrastrukturu inkişaf etdirilir. Həmçinin Azərbaycan–Gürcüstan əməkdaşlığının gündəliyində yeni liman infrastrukturunun yaradılması məsələsi durur və Azərbaycan tərəfi bu istiqamətdə də işbirliyinə hazırdır. Azərbaycan Xəzər dənizində ən böyük donanmaya sahibdir. Bakı Gəmiqayırma zavodu ən müasir tələblərə cavab verən müxtəlif təyinatlı gəmilərin tikintisi və təmiri üçün sifarişləri uğurla yerinə yetirir, zavodun imkanlarının artırılması və mülki donanmanın genişləndirilməsi üzərində fəal iş aparılır.

Əli Əsədov əlavə edib ki, regionda yaranmış yeni reallıqlar bölgədə çoxtərəfli əməkdaşlığın keyfiyyətcə yeni müstəviyə çıxması üçün yaxşı şərait yaradır və bütün region ölkələrinə iqtisadi və ticari dividendlər gətirəcək.

Baş nazir çıxışında Azərbaycanın və Gürcüstanın birlikdə həyata keçirdikləri layihələrin Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi, perspektivdə isə Cənub Qaz Dəhlizi ilə Avropaya nəql olunan Azərbaycan qazının həcminin iki dəfə artırılacağı, eyni zamanda, Avropaya yaşıl enerji körpüsünün salınmasına başlandığını diqqətə çatdırıb.

Monteneqronun hökumət başçısı da ölkəsinin İpək Yoluna verdiyi diqqətdən, irimiqyaslı enerji və nəqliyyat layihələrinin əhəmiyyətindən söhbət açıb.

Sonra forum panel iclaslarda işini davam etdirib.

İpək Yolu Forumunun Orta Dəhlizə həsr edilmiş panel müzakirəsində Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev çıxış edərək enerji və nəqliyyat layihələrinin əhəmiyyətindən danışıb. Bildirib ki, Orta Dəhliz Şimal Dəhlizindən daha təhlükəsiz, okeanlardan isə daha sürətlidir.

İkinci paneldə çıxış edən "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin Baş direktoru Taleh Ziyadov bildirib ki, Bakı Dəniz Limanı çox strateji məkanda yerləşir. Limanda yaradılan şərait ekoloji cəhətdən təmiz, yüksək texnologiyalarla və sağlamlığı təmin edən şəkildə qurulub.

Forum işini oktyabrın 27-də davam etdirəcək.

# Əli Əsədov Tbilisidə İrakli Qaribaşvili ilə görüşüb



**Oktyabrın 26-da Azərbaycanın Baş naziri Əli Əsədov Tbilisiyə işgüzar səfəri çərçivəsində Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.**

Ə.Əsədov Gürcüstan paytaxtında keçirilən Tbilisi İpək Yolu Forumuna dəvətə görə təşəkkürünü bildirib, regional və qlobal gündəlikdə duran iqtisadi və nəqliyyat məsələlərinin müzakirəsi baxımından tədbirin əhəmiyyətini vurğulayıb.

Görüşdə iki ölkə arasında dövlətlərarası əlaqələrin inkişafından məmnunluq ifadə olunub, Prezident İlham Əliyevin və Baş nazir İrakli Qaribaşvilinin birgə səyləri nəticəsində strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli xarakter aldığı bildirilib.

Tərəflər ticarət-iqtisadi əməkdaşlığı təqdir edərək, cari ilin 9 ayında qarşılıqlı ticarətin həcminin 12 faizdən çox artdığını vurğulayıblar.

İnvestisiya əməkdaşlığının artırılmasının vacibliyi qeyd olunaraq Azərbaycanın Gürcüstanın ən böyük investorlarından biri olduğu məmnunluqla vurğulanıb. Həmçinin ölkəmizdə əlverişli investisiya mühiti barədə məlumat verilib.

Enerji sektoru ikitərəfli əməkdaşlığın əsas prioritetlərindən biri kimi qiymətləndirilib. Bildirilib ki, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Cənub Qaz Dəhlizi layihələri həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi tərəqqisinə mühüm töhfə verir.

Azərbaycan və Gürcüstanın birgə həyata keçirdikləri enerji və nəqliyyat layihələrinin Cənubi Qafqazın transformasiyasına xidmət etdiyi, regionun siyasi, iqtisadi, nəqliyyat və enerji xəritəsini dəyişdiyi bildirilib. Tərəflər hər iki ölkənin ərazilərindən keçən nəqliyyat dəhlizlərinin potensialının genişləndirilməsinə böyük əhəmiyyət verdiklərini təsdiqləyərək Orta Dəhlizin artan əhəmiyyətini xüsusi vurğulayıblar. Azərbaycan və Gürcüstandakı dəniz limanları Orta Dəhlizin mühüm halqaları kimi qiymətləndirilib.

Eyni zamanda, hər iki ölkənin iştirakı ilə həyata keçirilən "Yaşıl enerji dəhlizi" layihəsinin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcəyi bildirilib.

Ə.Əsədov Gürcüstanda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin geniş qeyd edilməsinə görə təşəkkürünü ifadə edib. Bu baxımdan, Prezident İlham Əliyevin bu ay Gürcüstana işgüzar səfəri çərçivəsində Tbilisidə Ulu öndərin anadan olmasının 100 illiyinə həsr edilmiş fotosərginin təşkilinin əhəmiyyəti vurğulanıb.

XQ

# Ağalıya köç edən ailələrə mənzillərin açarı təqdim edilib

**Oktyabrın 26-da Ağalı kəndinə 95 nəfərdən ibarət 17 ailənin növbəti köçü baş tutub. Onlara mənzillərin açarı təqdim edilib və ailələr yeni evlərində yerləşiblər.**

Xatırladaq ki, bu günədək Zəngilan rayonunun Ağalı kəndinə, ümumilikdə, 150 ailə, 744 nəfər köçürülüb.

XQ



# Rusiya Ermənistan mediasından narazıdır

**Ermənistanın Moskvadakı müvəqqəti işlər vəkili Rusiya XİN-ə çağırılıb.**

Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən mətbuat konfransında məlumat verib.

O bildirib ki, Ermənistanın Moskvadakı müvəqqəti işlər vəkili oktyabrın 25-də XİN-ə çağırılıb və Ermənistan mətbuatında Rusiya rəhbərliyi, diplomatları, sülhməramlıları barədə dərc edilən xoşagəlməz materiallar onun diqqətinə çatdırılıb.

M.Zaxarova vurğulayıb ki, Ermənistanda hakimiyyətin nəzarəti altında olan KİV-in, teleqram kanallarının da qoşulduğu antirusiya kampaniyasının yolverilməzliyinə diqqət çəkilib.

XQ



# Canlı aləm Ermənistanın təxribatlarının qurbanı olmamalıdır!

## *Bu fikir heyvanların müdafiəsi üzrə beynəlxalq təşkilatlara ünvanlanmış müraciətdə yer alıb*

**"Bu günlərdə azad edilmiş ərazilərdə mina qurbanları olan 2 ayının (Ursus arctos) video və fotoları ictimailəşib. Biz bu təsvirlərdən hədsiz dərəcədə sarsılmışıq. Ayılardan birinin minaya düşərək şikəst qalması, digər ayı balasının isə minanı tapdalamaqla ölməsi aydın müşahidə edilib". Bu fikirlər "Bioloji Müxtəliflik Mərkəzi" İctimai Birliyinin heyvanların müdafiəsi üzrə beynəlxalq təşkilatlara ünvanladığı müraciətdə ifadə olunub.**

Müraciətdə Ermənistanın 44 günlük müharibədən əvvəl və sonra Azərbaycan ərazilərini minaladığı bildirilib. Qeyd edilib ki, yalnız 2023-cü ilin sentyabrındakı lokal xarakterli antiterror tədbirləri ilə bunun qarşısı alınıb. Ümumdünya Təbiəti Mühafizə Fondunun bir neçə il əvvəl Ermənistanla Azərbaycan sərhədində ayaqları sikəst qalmış 2 bəbirin (Panthera pardus) təsvirini yaydığının bildirildiyi müraciətdə həmçinin Qarabağ və Şərqi Zəngəzurda mina qurbanı olan heyvanlar içərisində Beynəlxalq Qırmızı Siyahıya düşmüş növlərin mövcudluğu vurğulanıb: "Ermənistan Respublikası tərəfindən heyvanlara, vəhşi faunaya qarşı sərgilənən bu cür qəddar münasibət yolverilməzdir. Cənubi Qafqaz kimi biomüxtəliflik cəhətdən zəngin bir regionun nadir təbiət inciləri, heyvanları bu cür rəftara məruz qalmamalıdır".



Müraciətdə eyni zamanda bildirilib ki, Ermənistan heyvanlardan sui-qəsdçi kimi də yararlanıb. Ölkənin Azərbaycan ərazisində mövcud olmuş qeyri-qanuni silahlı dəstələri itin üzərinə uzaqdan idarə olunan əldəqayırma partlayıcı qurğu bağlayaraq, onu Azərbaycan Ordusunun mövqeləri istiqamətində hərəkətə məcbur ediblər. Yalnız hərbi qulluqçularımızın sayıqlığı nəticəsində terror aktının qarşısı alınıb. Bu təxribat Adi silahların müəyyən növlərinin istifadəsinə qadağa və məhdudiyyətlərə dair Konvensiyaya ziddir.

"Azad edilmiş ərazilərdə ekoloji fəlakətin miqyası, Ermənistan tərəfindən törədilmiş ekosid ürək ağrıdır. 30 illik işğal dövründə Qarabağ və Şərqi Zəngəzurda xeyli sayda meşələrin qırılmasını və ya yandırılmasını, torpaq və su hövzələrinin qanunsuz dağ-mədən sənayesi işləri nəticəsində kimyəvi cəhətdən çirkləndirilməsini heyvanlara qarşı da kütləvi qırğın kimi qiymətləndiririk. Ermənistan bu anti-humanizm hərəkətlərinə, ekomüharibəyə, faunaya qarşı qəddarlığa görə cavab verməlidir" kimi fikirlərin yer aldığı müraciətdə vurğulanıb ki, canlı aləmin Ermənistanın hərbi-siyasi təxribatlarının qurbanı olmamalıdır.

R.AMİN

# Azərbaycanın mina problemi ABŞ-da müzakirə edilib



**Azərbaycanın ABŞ-dakı Səfirliyi, ANAMA və Beynəlxalq Avrasiya Mətbuat Fondunun təmsilçilərindən ibarət nümayəndə heyəti ABŞ-ın Ayova ştatında "Norman Borloq Beynəlxalq Ərzaq Təhlükəsizliyi üzrə Dialoq" tədbirində iştirak edib.**

Tədbir çərçivəsində ərzaq təhlükəsizliyinin bir hissəsi kimi təsərrüfata yararlı torpaqların becərilməsi üçün ərazilərin minalardan təmizlənməsinin əhəmiyyəti vurğulanıb, qabaqcıl təcrübələr təqdim edilib. Həmçinin, Azərbaycan nümayəndə heyəti dünyanın tanınmış beynəlxalq qurumlarının təmsilçiləri ilə görüşlər keçirib, ölkəmizin mina problemi, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə məlumat verib.

XQ

# Paşinyanın “The Wall Street Journal”a müsahibəsi və unutduğu reallıqlar

## Nikolun erməni avantürası naminə uydurduqları

*(əvvəli 1-ci səhifədə)*

Əlbəttə, Qarabağdakı Rusiya sülhməramlılarına ünvanlanmış ittiham da Paşinyanın gündəmindən düşməyib. İndi Nikol onları daha ciddi şəkildə qınamağa başlayıb. Baş nazirin sözlərinə görə, Rusiya sülhməramlıları Qarabağ ermənilərinin tələbatlarına cavab verməyiblər: “Uğursuzluqdan danışarkən, onu nəzərdə tuturam ki, Rusiya sülhməramlı qoşunları Dağlıq Qarabağ ermənilərinin təhlükəsizliyini təmin edə bilməyiblər və ya etmək istəməyiblər”.

Maraqlıdır ki, N.Paşinyan Rusiya sülhməramlıları ilə bağlı məsələyə Qarabağ ermənilərinin bölgəyə qayıtmaları kontekstində toxunub. Baş nazir əvvəlcə deyib ki, onların əraziyə geri dönmək imkanları və ya istəyi olmasa, Ermənistanda qalmaları və yaşamaları üçün hər şey ediləcək. Nikol onu da bildirib ki, region sülhsevər olarsa, ölkəsi də sülhsevər olacaq. “Elə bir vəziyyət ola bilməz ki, region dinc olmasın, amma Ermənistan sülhsevər olsun. Ona görə də biz heç bir halda dünya haqqında fikirlərə qarşı çıxmırıq və ya regionu dünyanın maraqlarından ayırmırıq”.

Bu, o deməkdir ki, birincisi, Paşinyan Qarabağ ermənilərinin bölgəyə indiki şərtlərlə qayıtmalarını istəmir. Çünki hazırda, bu, həm də Rusiya sülhməramlılarının missiyasının davamı olacaq. Region sülhsevər deyilsə və rus sülhməramlı kontingenti sülhü təmin edə bilmirsə, deməli, başqa yollar axtarılmalıdır. Başqa yolları isə Qərb müəyyənləşdirib. Söhbət Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təminatı üçün bölgəyə BMT sülhməramlılarının yeridilməsi ideyasından gedir. Bu fikri səsləndirən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişeldir. Paşinyanın baxışlarındakı regionu dünyanın maraqlarından ayrı “tutmamaq” kazusu isə bölgəni Rusiyanın maraq dairəsindən çıxarıb Qərbin nəzartinə daxil etməkdir. Buna görə də Nikol anti-Azərbaycan ritorikasını ölməyə qoymur. Yəni, çalışır ki, Qərb hərbi libasda Cənubi Qafqaza, konkret olaraq Qarabağa erməni avantürasını yaşatmaq məqsədilə ayaq bassın.

***

Erməni baş nazir 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yoldan bəhs edir. Onun ölkəmiz üzərindən anti-Rusiya köklənişini təsdiqləyən daha bir məqam da elə budur. Paşinyan son üç ayda artıq ikinci dəfədir ki, üçtərəfli Bəyanatda yazılanları görməzdən gəlir. Sənədin 9-cu bəndində isə bildirilir ki, “bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.

Bəri başdan deyək ki, Ermənistan əvvəla bu bəndin son cümləsində yer alan müddəa ilə razı deyil. Yəni, hazırda Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası aparılmır. Ən əsası isə Nikol müsahibəsində deyir ki, heç bir yerdə Rusiya Federasiyasının hər hansı qurumunun Ermənistanın hansısa ərazisinə nəzarət etməli olduğu yazılmayıb. Halbuki, yazıldığını gördük...

N.Paşinyan Azərbaycanla Naxçıvanın əlaqəsi ilə bağlı ayrıca gündəmin olmadığını vurğulasa da, məsələnin regional kommunikasiyaların açılması kontekstində mövcudluğunu bildirir və bunun bütün regional kommunikasiyaların açıqlığı şəraitində reallaşmasından danışır. Özü də şərt formasında. Erməni baş nazirin məntiqi anlaşılmır. Çox güman, digər kommunikasiyalar dedikdə Laçın yolundan danışır. Göründüyü qədərilə, Nikol tamam başqa havalara köklənərək, həyasızlıq edir.

Yeri gəlmişkən, erməni baş nazirin həyasızlığı kontekstində vurğulanmalı digər mətləblər də var. Məsələn, o, Ermənistanın suveren hüququnun məhdudlaşdırılmasına razılaşıldığının heç yerdə yazılmadığından danışır. Görəsən, belə bir razılıq haradasa sözbəsöz yazılmalıdır? Paşinyanın məntiqi ilə yanaşsaq, üçtərəfli Bəyanatda qeyd edilməli idi ki, Ermənistan öz suveren hüququnu məhdudlaşdırmağa razıdır. Belə bir şey yoxdursa, deməli, məsələ mümkünsüzdür. Hər halda, bundan böyük həyasızlıq ola bilməz. Təsəvvür edin, iki nəfər dalaşır, biri o birini yıxır yerə, amma yazığı gəlib vurmaq istəmir və yıxılan ayağa qalxıb basılmadığını iddia edir. Nikol da təxminən, belə deyir. Onun söz oyununa üstünlük verdiyi gün kimi aydındır...

***

N.Paşinyanın ABŞ jurnalına müsahibəsinin digər yerlərində də söz oyunu var. Konkret olaraq Naxçıvan yolunda Rusiyanın təhlükəsizlik təminatı məsələsindən bəhs edən erməni baş nazir birdən-birə Qarabağ müstəvisinə keçir. Deyir ki, ümumiyyətlə, Rusiya sülhməramlı qoşunlarının bölgədəki missiyasının uğursuzluğundan sonra bir çox suallar yaranır. “Bu suallar qanunidir, çünki uğursuzluq dedikdə, Rusiya sülhməramlılarının Qarabağ ermənilərinin təhlükəsizliyini təmin edə bilmədiyini və ya təmin etmək istəmədiyini nəzərdə tuturam” deyərkən Paşinyan, əslində, bildirmək istəyir ki, Rusiya Qarabağda təhlükəsizlik mühiti formalaşdıra bilmədisə, deməli, Naxçıvana gedən yolda da bunu gerçəkləşdirməsi mümkünsüzdür. Göründüyü kimi, Nikol eyhamlı şəkildə Moskvanı ələ salmaq yolu tutmaqdadır.

Ancaq erməni baş nazir Aİ Şurasının prezidenti Ş.Mişelin söylədiklərinə, həmçinin özünün Avropa Parlamentinin tribunasında dediklərinə fokuslanaraq, onu da bildirir ki, ölkələrin suverenliyi və yurisdiksiyası əsasında regional kommunikasiyalar açılmalıdır. O deyir: “Belə olan halda, Azərbaycan beynəlxalq ticarət üçün Ermənistanın nəqliyyat marşrutlarından istifadə edə bilərmi? Bəli, buna əminəm! Ermənistan beynəlxalq ticarət üçün Azərbaycan yollarından istifadə edə bilməlidirmi? Bəli! Beynəlxalq treyderlər qlobal ticarət kontekstində Ermənistan vasitəsilə Türkiyə, İran və Gürcüstanla ticarət edə bilməlidirlərmi? Bəli! Və biz bu təklifi veririk, bu qərara hazırıq və bu təklifi “dünyanın kəsişməsi” adlandırırıq. Bütün tərəfdaşlarımızı layihəni birlikdə həyata keçirməyə dəvət edirik”.

Deməli, əsas məsələ ondadır ki, Paşinyan üçtərəfli Bəyanatın şərtlərini pozmaqla yeni reallıq formalaşdırmaq fikrinə düşüb. “Dünyanın kəsişməsi” layihəsi elə budur. Nikolun komandasının üzvləri əvvəllər məsələni “Erməni kəsişməsi” adlandırırdılar. Görünür,



sonradan mövzuya, öz aləmlərində, daha qlobal məzmun qazandırmağa girişdilər. Əlbəttə, ilk baxışdan layihə cəlbedici görünə bilər. Amma haqqında söz açdığımız üçtərəfli Bəyanat olmasa. Nəzərə alaq ki, qeyd etdiyimiz zəmində sənəddən imtinada məqsəd, bir daha bildirək: Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaqdır.

Ancaq Nikolun unutduğu bir məqam var. O məqam bundan ibarətdir ki, Ermənistanın Naxçıvana gedəcək yoldakı təhlükəsizlik təminatına inam və etibar yoxdur. Ona görə Azərbaycan bildirir ki, İrəvan hazırkı şərtlərlə razı deyilsə, ölkəmizin digər ərazilərini Naxçıvanla birləşdirən yol İrandan keçəcək. Bu isə o deməkdir ki, Ermənistan belə demək mümkünsə, “dünyanı kəsişdirə” bilməyəcək. Nəinki bilməyəcək, özü dünyadan təcrid durumunda qalacaq. Hər halda, İrəvana öz imzasından imtinanın hansı mənfi nəticələr doğuracağını anlatmaq lazımdır. Halbuki, durum üçtərəfli Bəyanatdakı kimi olsaydı, Ermənistan tranzit əraziyə çevriləcək və gəlir əldə edəcəkdi.

***

Əlbəttə, N.Paşinyanın “The Wall Street Journal”a müsahibəsində söylədiklərinə ümumi şəkildə nəzər yetirsək, onun yanaşmasını Azərbaycanla sülhdən yayınmaq kimi qiymətləndirmək mümkündür. Bu, özünü Nikolun danışıqlar prosesinə münasibətində də göstərməkdədir.

Ümumən, son zamanlar hiss olunur ki, Paşinyan Azərbaycan–Ermənistan münasibətlərini nizamlama prosesinin Qərb formatına, daha dəqiq desək, ənənəvi Brüssel gündəliyinə “Qranada motivlərini” əlavə etməkdədir. Ermənistan baş naziri bu il oktyabrın 5-də Avropa Siyasi Birliyinin Qranadada keçirilmiş üçüncü zirvə toplantısında özünün, Fransa prezidenti Emmanuel Makronun, Almaniya Kansleri Olaf Şoltsun və Aİ Şurasının prezidenti Ş.Mişelin imzaladıqları sənədləri ehkamlaşdırmaq yolu tutur. Belə münasibət Qarabağ ermənilərini ayrıca zümrə kimi təsəvvürə gətirməyə, onların hüquq və təhlükəsizliyi ilə bağlı manipulyasiyalara hesablanıb. Yazımızın əvvəlində bununla əlaqədar söz açdığımızdan yenidən məsələyə qayıtmaq istəməzdik.

***

Bəli, Ermənistanın Qarabağ ermənilərinin bölgəyə qayıtmaq üçün hüquq və təhlükəsizlik şərtini irəli sürməsi Azərbaycanın bununla bağlı konstitusyon əsasda verdiyi təminatların heçə sayılması mənqtindən irəli gəlir. Nəticə etibarilə onların ayrıca statusa malik təbəqə kimi götürülməsi xətti seçilir ki, bu, gələcəkdə Qarabağın Azərbaycandan kənar ərazi kimi rəsmiləşməsinin ilk addımları kimi nəzərdə tutulmaqdadır. Elə Nikolun “The Wall Street Journal”a müsahibəsində də bu məqsəd özünü göstərməkdədir.

Beləliklə, Paşinyan Azərbaycanla sülh gündəliyi baxımından üç prinsip açıqlayır. Onun sözlərinə görə, birinci prinsip ondan ibarətdir ki, Ermənistan və Azərbaycan qarşılıqlı olaraq bir-birinin ərazi bütövlüyünü tanıyırlar. “Bu müddəa Praqada (2022-ci ilin oktyabrın 6-da) keçirilən toplantıda elan edilib və 2023-cü il mayın 14-də Brüsseldə daha bir addım atılıb. Azərbaycan Ermənistanın 29800 kvadratkilometrdəki ərazi bütövlüyünü, Ermənistanın isə Azərbaycanın 86600 kvadratkilometrlik ərazidə suveren haqlarını tanıyıb”, – deyən erməni baş nazirin sırf mövcud xüsusda söylədiklərinin üzərində geniş dayanmağa ehtiyac yoxdur. Çünki burada hər şey aydındır. Amma...

Paşinyan bildirib ki, ikinci prinsip Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyasıdır. O, bu prosesin 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında aparılmalı olduğunu vurğulayıb: “Xüsusiyyət ondadır ki, bu bəyannamənin imzalanması zamanı Sovet İttifaqı respublikaları artıq müstəqil ölkələrə çevrilmişdilər və ya de-fakto müstəqil olmuşdular. Alma-Ata Bəyannaməsində onlar arasında mövcud sovet inzibati sərhədlərinin dövlət sərhədləri kimi tanındığı bildirilirdi. Sərhədlərin delimitasiyası 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında baş verməlidir deyəndə nəzərdə tuturuq ki, o dövrdə mövcud olan dövlət xəritələri alınmalı və onlar əsas götürülməlidir”.

Qeyd edək ki, N.Paşinyan əvvəllər Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirirdi. Nədənsə son zamanlar tanınmadan söz düşəndə “Qarabağ” sözünü işlətmir. “Əmma” da elə bundadır. Diqqət yetirək, Alma-Ata Bəyannaməsinə qədər keçmiş SSRİ respublikalarının bir çoxu müstəqil olmuşdularsa, yaxud de-fakto müstəqil idilərsə, bir anlıq 1991-ci ilin dekabrın əvvəlində Qarabağda referendumun keçirilməsini, azərbaycanlıların iştirak etmədikləri, yalnız ermənilərin qatıldıqları prosesdə Qarabağın müstəqilliyinə səs verildiyini yada salaq. Dekabrın 21-də isə Alma-Ata Bəyannaməsi imzalanmışdı.

Yeri gəlmişkən, Qarabağdakı artıq canını tapşırmış separatçı rejimin keçmiş rəhbəri Samvel Şahramanyanın bu günlərdə söylədiklərinə də nəzər salaq. O, dedi ki, heç kəs “Dağlıq Qarabağ Respublikası”nı ləğv edə bilməz, çünki o, referendum nəticəsində, yəni “Artsax xalqının” iradəsi ilə yaranıb. Deməli, Ermənistan nə zamansa qanunun geri işləməməsi prinsipinə əsasən, Alma-Ata Bəyannaməsinin Qarabağa heç bir aidiyyatının olmadığını bildirə bilər. Hər halda dəfələrlə sözündən dönən birinin belə bir manipulyasiyaya baş vurmayacağına heç kəs təminat verə bilməz. Xəritələrdən söz düşmüşkən, “Artsaxın xəritəsi” deyilən kağız parçası da var. Üstəlik, “Böyük Ermənistanın” da...

İndi tam aydın olur ki, əvvəldə haqqında danışdığımız Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi baxımından beynəlxalq təminat məntiqi bölgədə erməni avantürizminin davamına hesablanıb. Müvafiq olaraq bu davam üçün İrəvan tərəfindən Rusiya sülhməramlılarından imtina və onların yerini BMT sülhməramlılarının tutması irəli sürülür. Nəticəyə gəlirik ki, Paşinyan Qarabağ avantürasını Moskvanın egidasından çıxarıb Qərbin sərəncamına təslim etmək barədə düşünür. Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar məhz buna görə deyir ki, təmsil olunduğu qurumun başlıca vəzifəsi Qarabağ ermənilərinin öz evlərinə qayıtmalarıdır. Görəsən, T.Klaar və onun digər dostları, o cümlədən, Aİ Şurasının prezidenti Ş.Mişel nə üçün Qarabağ boşaldılanda, insanların öz evlərindən getməməsi mövzusunda çağırış səsləndirmədilər? Elə buradan da tam aydın görünür ki, “ssenari” əvvəlcədən hazırlanmışdı.

Deməli, Qarabağ ermənilərinin apar-topar bölgədən çıxmaları məqsədli imiş. Başlıca məqsəd isə beynəlxalq miqyasda “etnik təmizləmə” şousu yaratmaqla, Azərbaycana təzyiq göstərmək, ölkəmizin Qarabağda erməni avantürizminin saxlanmasına razı salmaq idi. Ən əsası isə nəticə etibarilə Azərbaycanın suverenliyini şübhələndirmək xülyasına baş vurulur. Əlbəttə, bu şübhələndirmək yekunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi üçün baza formalaşdırmaq məramından irəli gəlməkdədir. Hər halda, “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verən Nikol olmuşdu.

Paşinyanın “The Wall Street Journal”a müsahibəsində Qərb formatı çərçivəsindəki Azərbaycan–Ermənistan danışıqları ilə bağlı səsləndirdiyi üçüncü prinsip də mahiyyətcə əvvəl diqqətə çatdırdıqlarımızın davamıdır. Onun söylədiklərindən belə qənaətə gəlmək olar ki, regional kommunikasiyalar, o cümlədən, Ermənistan və Azərbaycan arasında avtomobil və dəmir yolları üçtərəfli Bəyanat məntiqindən kənar açılmalıdır. Yəni, belə demək mümkünsə, Rusiyasızlıq əsas götürülməlidir. Hər halda, Nikolun ölkələrin suverenliyi, yurisdiksiyası, bərabərliyi və qarşılıqlılığı prinsiplərinin üzərində dayanması məhz buna görədir.

***

Əlbəttə, məsələ heç də onda deyil ki, üçtərəfli Bəyanat Ermənistanın ərazi bütövlüyünü təhdid edir. Hərçənd, rəsmi İrəvan, o cümlədən, baş nazir Paşinyan məsələyə məhz bu kontekstdən yanaşmaqdadır. Əslində, sənəd Ermənistanın müharibədə məğlub olmuş tərəf kimi üzərinə götürdüyü öhdəlikdir. O öhdəlik ki, İrəvanı tamamilə iflasdan qurtarmışdı. O öhdəlik ki, Ermənistan onu başqasının torpağını işğalda saxlamağın aqibəti kimi qəbul etmişdi.

Ancaq N.Paşinyanın “The Wall Street Journal”a müsahibəsindən ümumən belə görünür, erməni iqtidarı keçmişin dərslərini unutmaqdadır. Halbuki, unutmamalı və reallıqları dəyişdirməyə cəhd göstərməməli idi. Nəzərə almalı idi ki, nəyisə dəyişdirmək istəyi həm də Cənubi Qafqazda sülhə qarşı çıxmaqdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Colinin əyri güzgüsü

## Okeanın o tayındakı aynalar gerçəkliyi tərsinə göstərirmiş

**Əslində, buna təbii baxmalıyıq. Axı, arada az qala yarım sutkalıq zaman fərqi var. Üstəlik, Günəşin şüaları Atlantik okeanından bərq vurub onlara həqiqəti “güzgü effektində” göstərir. Söhbət uzaq Kanadadan, daha doğrusu, Kanadanın xarici işlər naziri Melani Colinin İrəvana səfəri zamanı dediyi yalanlardan gedir.**

Kanadanın Ermənistanda özünün konsulluğunu və ya səfirliyini açması ilə işimiz yoxdur. BMT üzvü olan iki ölkə öz aralarında diplomatik əlaqələr qurur, nümayəndəliklərini təsis edirlər. Buna kim nə deyə bilər? Amma bu zaman okeanın o tayından Cənubi Qafqaza təşrif buyurmuş xanım Colinin İrəvanda Azərbaycan əleyhinə həqiqətdən uzaq, diplomatik etiketə və siyasi məntiqə sığmayan fikirlər səsləndirməsi bu ranqlı məmura yaraşan sifət deyil.




Ölkəsinin Ermənistan paytaxtında səfirliyinin açılış mərasimindən sonra düzənlədiyi mətbuat konfransında xarici işlər naziri Melani Coli Kanadanın Ermənistanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib. Buna sözümüz yox. Ardınca “güc tətbiq etməmək prinsipinə riayət olunmasının vacibliyini” vurğulayan xanım nazir Azərbaycanı “Qarabağın erməni əhalisinin doğma ocaqlarına (?) qayıtmaq hüququnu tanımağa” çağırıb.

Qafqaz məsələləri üzrə ekspert qismində çıxış edən Kanadanın xarici işlər naziri ermənilərin Qarabağdan köçməsinin səbəbi kimi “Dağlıq Qarabağın (?) uzun müddət qanunsuz olaraq blokadada saxlanmasını, Bakının 19 sentyabr “hərbi təcavüzünü” yada salıb. Bununla da kifayətlənməyən fransız əsilli nazir “təcavüzkar Azərbaycana qarşı sanksiyaların tətbiq olunmasının mümkünlüyü barədə” suala da maraqlı cavab verib: “Bütün variantlar masa üzərindədir. Biz gözləyirik ki, Ermənistanın ərazi bütövlüyünə hörmət ediləcək. Ona görə bu məsələyə böyük diqqət yetiririk”.

Melani Colinin Kanadada erməni lobbisinə, yaxud ermənipərəst hansısa icmaya yaxın olduğu danışığından bəlli olur. Fəqət onun Azərbaycanın ünvanına kirlənmiş ittihamlar səsləndirməsi bölgədə baş verən son hadisələrdən tam bixəbər olmasından, köhnə mahnıların havasına oynamasından xəbər verir. Məgər Bakı Qarabağ ermənilərinin geri qayıtmalarına şərait yaratmaqdan boyun qaçırır? Bunu dəfələrlə demişik: qayıtsınlar, bayrağımızın altından keçsinlər və bərabərhüquqlu vətəndaşlarımız olaraq normal həyatlarını yaşasınlar. Kanadanın baş diplomat xanımı Coliyə isə okeanın o tayına qayıdandan sonra trümosundakı güzgünün tozunu silməsini məsləhət görərdik. Bəlkə onda aynada həqiqətləri deformasiyaya uğramış şəkildə deyil, olduğu kimi görə bildi. Yəqin o zaman İrəvanda önünə çələng qoyduğu “soyqırımı abidəsinin” də tarixin “əyri güzgüsünün” fəsadları olduğunu anlamış olar.

***İ.HƏSƏNQALA***
***XQ***

# “Dönər” həyəcanının əks-sədası

## Ucuz ətin şorbası olmasa da, dönəri, kababı, kolbasası…göydə gedir

**Ət məxbəximizin, gündəlik qidamızın əvəzolunmaz nemətidir. “Ətin yerini heç nə vermir” ifadəsi də bu məntiqdən yaranıb.**

Bəs, görəsən, həyatımıza bu qədər geniş daxil olmuş ət hansı dəyərdə, keyfiyyətdədir? Axı, ət ləzzətli olduğu qədər də, zay və keyfiyyətsizliyi ilə, qorxulu və dəhşətlidir.

Dünənki sayımızda Bakı məktəblilərinin dönərdən zəhərlənməsi hamımızda həyəcan doğuran arzuolunmaz hadisə barədə məlumat vermişdik. Bu yazını hazırlamağımıza da həmin dönər zəhərlənməsi səbəb oldu.

Ölkə ərazisində ətin qiymətinin getdikcə bahalaşdığı – bazarlarda mal ətinin kiloqramının 14–15 manata, qoyun ətinin isə 17–20 manata satıldığı halda, bəzi yerlərdə, məsələn, “8-ci kilometr bazarı”nda, bəzi kəsim məntəqələrində bu məhsulun 1 kiloqramı alıcıya 8–9 manata təklif edilir. Belə əti isə, əsasən, əhalinin kasıb təbəqəsi alır. Şübhəsiz ki, mənbəyi bəlli olmayan bu məhsuldan evlərdə, iaşə müəssisələrində, dönərxanalarda, bir sıra hallarda, hətta şadlıq evlərində istifadə olunur. Görünür, kiloqramı 8 – 9 manata olan sosiska və kolbasalar da belə – xalqın “leş” adlandırdığı ətdən hazırlanır. Bu cür keyfiyyətsiz ətlərdən qidaların hazırlanması, nəticədə, bir çox zəhərlənmələrə səbəb olur.

Bu məqamda belə bir sual ortaya çıxır: bu ətlər haradan gətirilir, qiyməti niyə belə ucuz olur, ictimai iaşə müəssisələrində istifadəsinə kim nəzarət edir? Sualın cavabı aydındır, nəzarət kağız üzərindədir, əməldə isə məsuliyyətsizlik, laqeydlik aydın nəzərə çarpır. Çünki oktyabrın 24-də baş verən hadisə – 16 şagirdin dönərdən zəhərlənməsi ciddi narahatlıq doğuran məsələ barədə aydın təsəvvür yaradır. Belə ki, hadisəyə səbəb olması heç bir şübhə doğurmayan dönərxanada istifadə edilən ətin alındığı mənbənin, eləcə də bu iaşə obyektinin fəaliyyətinin nəzarətdən kənar qalması məlum hadisənin yaranmasını şərtləndirir. Şübhəsiz ki, bu məsələdə ən böyük günahkar Qida Təhlükəsizliyi Agentliyi (AQTA), onun tabeliyindəki Qida Təhlükəsizliyi İnstitutudur. Çünki belə bir xoşagəlməz vəziyyət, ilk növbədə, həmin qurumların öz fəaliyyətlərində qanunun tələblərinə laqeyd yanaşılmasının nəticəsidir.

Ekspertlərin fikrincə, təkcə “Şah dönər” adlanan ictimai iaşə obyektinin deyil, digər dönərxanaların da nəzarətdən kənar qalması üzündən həmin müəssisələr hər zaman real təhlükə mənbəyi kimi tanınır. Belə olan halda tam əminliklə qeyd edə bilərik ki, AQTA vəzifəsini–qida məhsullarının keyfiyyət və təhlükəsizliyinə dövlət nəzarətini istənilən səviyyədə həyata keçirmir.

Onu da deyək ki, bəzi hallarda AQTA, hətta təqsiri özündən çox istehlakçıda görür, vətəndaşları qida məhsulu alarkən ticarət müəssisəsindən ət məhsulu ilə bağlı satıcıdan baytarlıq arayışı, şəhadətnamə, ekspertiza aktı tələb etməməkdə, ən azı, vizual olaraq, ətin cəmdəyi üzərinə vurulan möhürə baxmamaqda günahlandırır. Əslində, bu iddianın heç bir əsası yoxdur. Çünki sirr deyil ki, məhsulun baytar həkimin müayinəsindən keçməsi həmin ətin, necə deyərlər, keyfiyyətinə dəlalət etmir. Axı, baytar həkimin yoxlama prosesində hansı şərtlərə üstünlük verdiyi heç kəsə sirr deyil.

Ekspertlərin sözlərinə görə, son illər cəmiyyətdə ağır bir bəlaya çevrilən 15 mindən çox dönərxanada Qida Təhlükəsizliyi Agentliyi ictimai şuranın üzvləri ilə birlikdə monitorinq aparmır, ölkədə nümunəvi dönərxanaların yaradılması istiqamətində tədbirlər həyata keçirmir. Əhali arasında məhz belə dönərxanaların xidmətindən istifadə edilməsinin zəruriliyi ilə bağlı təbliğata maraq göstərmir.

2006-cı ildə ölkədə quş qripi tüğyan edən zaman toyuq ətindən hazırlanan dönərin satışı qadağan edildi. Həmin qadağa hələ də qüvvədədir. Bununla belə, hazırda, demək olar ki, bütün dönərxanalarda toyuq ətindən hazırlanmış dönərlərin satılması halları müşahidə olunur. Yeri gəlmişkən, toyuq dönərinin satışı, həm də ona görə qadağan edilmişdi ki, toyuq əti tez xarab olan, risk qrupuna aid bir məhsuldur. Bundan isə çox ciddi zəhərlənmələr baş verə bilər.



Ekspertlərin məlumatlarından bir məqam da diqqət çəkdi. Belə ki, illər öncə Azərbaycanda iki müəssisəyə həm toyuq, həm də mal ətindən lazımi standartlara uyğun dönər hazırlayaraq məhsulu şişlərə taxmaqla xüsusi avtomobillərdə dönərxanalara çatdırılmasına icazə verilmişdi. Lakin həmin müəssisələrdə çox bahalı, şok dondurucu aparatlar var. Bu cihazlarda dönər əti şişə taxıldıqdan sonra mənfi 40 dərəcə temperaturda dondurulur. Bununla da, ətin tərkibində ehtimal olunan heyvan xəstəlikləri və digər təhlükəli bakteriyaların hamısı məhv olur. Ondan sonra məhsul skoça bükülmüş xüsusi karton qablarda qablaşdırılmış şəkildə soyuducularda saxlanılmaqla avtomobillər vasitəsilə dönərxanalara çatdırılır. Təəssüf ki, aparılan araşdırmalar göstərir ki, say etibarilə dönərxanaların heç sıfır tam onda beş faizi həmin müəssisələrdən dönər almır.

Dönərxanalar ən yaxşı halda sertifikat alaraq divardan asırlar. Bununla əhali arasında, guya, həmin müəssisələrdən dönər almaları ilə bağlı fikir formalaşdırmağa çalışırlar. Belə olan təqdirdə heç kəs sübut edə bilməz ki, bu cür məkanlarda bişən dönərin həmin kağızla nə dərəcədə aidiyyəti var.

Uzun illərdir ki, ölkənin, demək olar ki, bütün bölgələrində ölmüş heyvan, at və eşşək ətlərinin paytaxta daşınması halları müşahidə olunur. Çox təəssüf ki, Qida Təhlükəsizliyi Agentliyi tərəfindən bu cür hallarla mübarizə sahəsində təsirli tədbirlər görülmür. Ekspertlərin fikrincə, bu sahədə ən uğurlu işi Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İarəsi görür. Belə ki, qurumun əməkdaşları tərəfindən ekspertizalar aparılır, həbslər həyata keçirilir. Lakin təəssüf ki, bu işə son qoyulmur. Çünki tələb var. Bəs bu tələb haradan qaynaqlanır? Təbii ki, həmin tələbi dönərxanalar formalaşdırır. Hazırda dönərxanalar insan orqanizmi üçün son dərəcə təhlükəli olan bu cür ətlərin satışının reallaşdırılması üçün, belə demək mümkünsə, ən ideal məkanlardır.

***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Dönər ətinin insanı zəhərləmək xüsusiyyətlərindən biri odur ki, məhsul bişirilən zaman onun çölü qızardılır, lakin içərisinə isə şiş boyu yenicə istilik keçir. Bu zaman oradan ətdən olan plazma, yəni, su ilə qanın qarışığı olan maye axaraq aşağıdakı sininin içərisinə dolur. Belə olan halda bütün heyvan xəstəlikləri, heyvana aid nə qədər antibiotik, dərman qalıqları varsa, hamısı sininin içinə tökülür. Dönərçilər də ətin qızarmış çöl hissəsini həmin plazma ilə qarışdıraraq alıcılara satırlar.

Məlum olduğu kimi, keyfiyyətsiz ətdən hazırlanmış dönərə ətin dadını itirən ketçuplar və sair əlavələr qarışdırılır. İstehlakçılar isə bunun mənfi təzahüründən xəbərsiz olduğundan dönəri alıb iştahla yeyirlər. Bu da xüsusilə azyaşlı uşaqların və gənclərin həyatını təhlükə altına atır. Əslində, dönərxanalar insanların tədrici zəhərlənmə mənbəyidir.

Qeyd etmək istəyirəm ki, dönər bir çox ölkələrdə istehsal olunur. Mən özüm Mərkəzi Avropa ölkələrində, o cümlədən İsveçrədə dönər yemişəm. Həmin ölkələrdə dönər oturaq yeməklər sırasına aiddir. Dönəri qabın içində səliqəli şəkildə sifarişçiyə təqdim edirlər. Bu zaman müştəri onun içərisinə nələrin doldurulduğunu görür. Çox təəssüf ki, Azərbaycandakı dönərxanalar elə bir şəraitdə fəaliyyət göstərirlər ki, istehlakçılar məhsulun tərkibindən və onun hazırlanma qaydasından tam xəbərsiz olurlar. Baxmayaraq ki, ölkəmizdə dönərxanalar üçün standartlar mövcuddur. Belə ki, illər öncə keçmiş Dövlət Standartlaşdırma və Metrologiya Komitəsi tərəfindən dönərxanalar üçün standartlar, gigiyenik tələblər müəyyənləşdirilib. Gəlin baxaq, görək həmin gigiyenik tələblərə əməl olunurmu? Dönərxanalarda çalışanlar tibbi müayinədən keçirilirmi? Orada olan məhsulların saxlanması üçün soyuq bir mühit varmı? Əfsuslar olsun ki, bu sualların heç birinin müsbət cavabı yoxdur.

Ən başlıcası, burada mühüm məsələ ətlərlə bağlıdır. Ətlərin mənbəyi isə daim şübhə altındadır. Bu sahədə ən təhlükəli hallardan biri də günün axırına qalan dönərlərdir. Yəni, həmin məhsul ertəsi günə saxlandıqda o, artıq çirklənir. Həmin məhsulda isə bakteriyalar kifayət qədər inkişaf edir. Ona görə bu sahədə lazımi monitorinqlər aparılmalıdır. Bununla yanaşı, dönərçilər də işlərini elə qurmalıdırlar ki, sabaha məhsul qalmasın. Yalnız mənfi 40 dərəcədə soyudulmuş dönəri bakteriyaların inkişafından qorumaq olar.

Bir məsələni də qeyd edim ki, toyuq dönərləri təzə toyuq budundan hazırlanmalıdır. Ümumiyyətlə, toyuq əti belədir ki, o bir dəfə soyudulub açılmalı və istifadə olunmalıdır. Yəni, təkrar dondurulmuş toyuq əti artıq çirklənmiş məhsul sayılır. Bəzi müəssisələr var ki, təzə toyuq alır, mənfi 40 dərəcə temperaturda donduraraq dönərə çevirir və dönərxanalara göndərir.

Fürsətdən istifadə edib bir məqamı da vurğulamaq istəyirəm. Vətəndaşlar tez-tez Azad İstehlakçılar Birliyinə zəng edib soruşurlar ki, necə olur ki, ayranla birlikdə 1 manat 40 qəpiyə dönər satılır. Normalda isə dönərin qiyməti 2–2,5 manat olmalıdır. Eyni zamanda, istehlakçının aldığı məhsul insan orqanizmi üçün tam təhlükəsiz olmalıdır.

Təəssüf ki, ölkədə dönər satışında hegemonluq edən böyük bir şəbəkə qiyməti aşağı endirməklə heç nəyə məhəl qoymadan bu işləri görür. Bu da istehlakçıların həyatını təhlükə qarşısında qoyur. Qida Təhlükəsizliyi Agentliyi bu işə birbaşa cavabdehdir. Amma qurum bu sahədə rasional olaraq heç bir iş görmür. Əksər vaxtlarda bəzi neqativ hallarla bağlı məlumatlar kütləvi informasiya vasitələri tərəfindən ictimaiyyətə çatdırılır. Amma mövcud sahədə vəziyyətə aydınlıq gətirilmir, məsələ tam nəzarətsiz saxlanılır. Bu da ona dəlalət edir ki, ölkədə istehlakçı hüquqları lazımi səviyyədə qorunmur.

Azərbaycanda dövlət biznes qurumları üçün toxunulmaz bir şərait yaradıb. Buna bənzər şəraitə heç bir dünya ölkəsində təsadüf olunmur. Təəssüf hissi ilə bildirmək istəyirəm ki, ölkəmizdə əksər biznes qurumları tərəfindən bundan sui-istifadə hallarına yol verilir. İstehlakçılar dönər alan zaman mütləq ətin mənşəyi ilə bağlı sənəd tələb etmək, satıcılardan tibbi müayinədən keçib-keçmədiklərini soruşmaq hüququna malikdirlər. Yaxşı olardı ki, onlar bu kimi amillərə fikir versinlər. Düşünürəm ki, bu sahədə köklü dəyişikliklər etmək lazımdır. Dönərin bişirildiyi məkanlarda ciddi monitorinqlər aparılmalıdır. Ətin mənşəyi, onun haradan gətirilməsi və hansı şəraitdə saxlanılması ilə bağlı məlumatlar əldə olunmalıdır. Bütün bunlar cox ciddi amillərdir.

Məlum olduğu kimi, paytaxt məktəblərinin birində şagirdlərin dönərdən zəhərlənmə hadisəsi baş verib. Bu məsələ bütün cəmiyyət kimi Azad İstehlakçılar Birliyini də ciddi narahat edir. Düşünürəm ki, əgər zəhərlənmələr dönərdən baş verirsə, insanlara müəyyən kompensasiyaların verilməsi məsələsi də gündəmdə olmalıdır.

Onu da deyim ki, uzun illərdir ölkəmizdə təkcə dönərdən deyil, digər məhsullardan da zəhərlənmələrin dəqiq statistikası aparılmır, bu kimi xoşagəlməz hadisələr düzgün qeydiyyata alınmır. Fikrimcə, bu sahədə konkret dövlət siyasəti mövcud olmalıdır. Xatırladım ki, respublikamızda qida zəhərlənmələri dünya statistikasından 700 dəfə az göstərilir. Bu statistikanın gizlədilməsi kimə və nəyə xidmət edir? Bu, anormal bir haldır. Azad İstehlakçılar Birliyi bu kimi hallarla qətiyyən razı deyil. Qurum vətəndaşları bu sahədə ictimai nəzarəti həyata keçirməyə dəvət edir.

Vurğuladığım kimi, standartlara uyğun hazırlanmış dönərlər xüsusi avtomobillərdə gətirilməlidir. Skoça bükülmüş halda karton qablarda qablaşdırılmalı və şişə taxılmaqla dönərxanalara gətirilərək oradakı aparata quraşdlrılmalıdlr. Yalnız bu şəkildə hazırlanmış və mənfi 40 dərəcədə dondurulmuş dönərlər tam təhlükəsizdir. Lakin dönərçilər hardan və necə gəldi ət alıb məhsul hazırlayırlar ki, bu da bəzən kütləvi zəhərlənmələrə gətirib çıxarır. Bu, həm də əhalinin uzunömürlüyünə mənfi təsir edir. Təsadüfi deyil ki, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatının uzunömürlülər siyahısında 190 ölkə arasında 116-cı yerdə qərarlaşıb. Hətta bu məsələdə bəzi 3-cü dünya ölkələrindən də geridəyik. Bu kimi hallar bizim sağlamlığımıza mənfi təsir göstərməklə ömrümüzü də qısaldır. Bu məsələyə birfəfəlik son qoyulmalıdır. Fürsətdən istifadə edərək Qida Təhlükəsizliyi Agentliyinə səslənirəm ki, kütləvi informasiya vasitələri və ictimai təşkilatlarla əlbir çalışaraq bu kimi neqativ halların qarşısının alınması üçün ciddi tədbirlər görsün.

# Fransa tərəfinin növbəti qərəzi



**Qarabağ bölgəsində mədəni irslə bağlı iddialar Fransa tərəfinin növbəti zəifliyi və qərəzinin nümunəsidir.**

Bu barədə XİN-in mətbuat katibi Ayxan Hacızadə Fransanın mədəniyyət naziri Rima Əbdül Mələkin Ermənistana səfəri zamanı səsləndirdiyi fikirlərlə bağlı yerli mətbuatın sualına cavabında bildirib.

XİN rəsmisi bildirib ki, Azərbaycan öz ərazilərindəki bütün mədəni və tarixi abidələrin mühafizəsinin vacibliyini və bu xüsusda, öhdəliklərini çox gözəl dərk edir. Fransanın başqa xalqlara məxsus tarixi və mədəniyyət sərvətlərini müsadirə etmiş ölkə kimi belə iddialar qaldırmağa heç bir mənəvi haqqı yoxdur.

***XQ***

# Qarabağda “mina savaşı” davam edir

## Torpağın üstü kimi, altı da “əsarətdən” xilas edilir

*(əvvəli 1-ci səhifədə)*

– Qarabağ və Şərqi Zəngəzurda infrastrukturlar yenidən qurulur, iqtisadi fəaliyyət sahələri yaradılır, ermənilərin məhv etdiyi təbiət bərpa olunur. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bu ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsidir.

Bu məsələ Qarabağ və Şərqi Zəngəzurda dayanıqlığa nail olmaq üçün təhlükəsizliyin təmin edilməsinin əsas prioritetidir. Çünki ərazilərimizin Ermənistan tərəfindən minalarla həddindən artıq çirklənməsi hazırda işğaldan azad edilmiş ərazilərin yenidən qurulması zamanı qarşılaşdığımız böyük problemdir. Minalar və digər partlamamış sursatlar yenidənqurma səylərinə və keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıtmasına əsas maneədir. Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün, təxminən, 30 il və 25 milyard ABŞ dolları lazımdır.

ANAMA-dan qəzetimizə verilən məlumatda göstərilir ki, 2020-ci il noyabrından bu ilin oktyabrınadək 98 min hektar ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib, 93 min 410 mina və partlamamış hərbi sursat tapılaraq zərərsizləşdirilib. Mina partlayışı nəticəsində 314-dən çox ölüm faktı qeydə alınıb.

Dövlət Proqramına əsasən, 2023–2026-cı illərdə, ümumilikdə, 215 min hektar ərazinin minalardan təmizlənməsi planlaşdırılır. 2026-cı ilin sonunda, ümumilikdə, 280 min hektar ərazi minalardan təmizlənmiş olacaq. Bu işlər üzrə əsas icraçı Minatəmizləmə Agentliyi, digərləri isə Daxili İşlər, Müdafiə, Fövqəladə Hallar nazirlikləri və Dövlət Sərhəd Xidmətidir.

Qeyd edək ki, hazırda təmizlənmiş ərazilərdə müasir infrastruktur qurulur, şəhər və kəndlər yaşayış üçün hazır vəziyyətə gətirilir və əhalinin məskunlaşdırılması davam etdirilir. Minlərlə yeni iş yerləri yaradılır. Bu proseslər mərhələli şəkildə, həm də ən müasir standartlar səviyyəsində həyata keçirilir. Minalardan təmizlənmiş ərazilər həm də əkinə cəlb edilir. Bu ərazilərdə kənd təsərrüfatı və heyvandarlıq məhsullarının istehsalı sözsüz ki, bazarda bolluq yaradacaq ki, bu da bilavasitə qiymətlərin aşağı düşməsinə səbəb olacaq.

Bu barədə Milli Məclisin deputatı Tahir Rzayev dedi:

– İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı üçün böyük imkanlar var. Sözsüz ki, bu torpaqlar minalardan təmizlənməlidir və insanların təhlükəsizliyi təmin edilməlidir. Ancaq yaxşı haldır ki, işğaldan azad edildikdən az sonra təhlükəsiz ərazilərdə kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə başlanılıb. Ötən il həmin ərazilərdə 72 min hektarda taxıl əkilib, 770 hektarda yazlıq bitkilər əkilib ki, həmin bitkilər arsında günəbaxan, qarğıdalı, noxud, kartof və digər kənd təsərrüfatı bitkiləri var. Bu il isə 100 hektar sahəyə taxıl səpilib.




Həmin ərazilər minalardan tam təmizlənib qurtarandan sonra o torpaqlar əkin dövriyyəsinə daxil ediləcək və orada digər kənd təsərrfüatı məhsullarının əkininə başlanılacaq. Çox yaxşı haldır ki, arıçılar da həmin ərazilərdə arı ailələri yerləşdirir, yay mövsümündə həmin yerlərdə heyvandarlıq üçün lazımi şərait yaradılıb. Digər tərəfdən də həmin rayonlara insanlar köçürülüb və onlar da əkin işlərinə başlayıb.

Yerli istehsal olan mexaniki vasitələr işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsinə, “Böyük Qayıdış” proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin öz doğma yurdlarında təhlükəsiz məskunlaşmasına böyük töhfə verəcək.

Azad edilmiş ərazilərin bərpası isə təkcə Qarabağ regionunun deyil, bütünlükdə Azərbaycan iqtisadiyyatının inkişafı baxımından da böyük əhəmiyyət daşıyır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumları rəhbərlərinin 2023-cü ilin noyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaş qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Baş prokuror** Kamran Əliyev | **Abşeron** | Abşeron, Zəngilan | **02** |
| 2. | **Ədliyyə naziri** Fikrət Məmmədov | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | **03** |
| 3. | **Mədəniyyət naziri** Adil Kərimli | **Tərtər** | Tərtər, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa | **03** |
| 4. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **04** |
| 5. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Zaqatala** | Zaqatala, Balakən | **07** |
| 6. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Neftçala, Biləsuvar | **14** |
| 7. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Gəncə** | Gəncə, Naftalan, Goranboy, Samux, Göygöl, Kəlbəcər, Xocalı | **15** |
| 8. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Beyləqan** | Beyləqan, Füzuli, Xocavənd | **17** |
| 9. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Şirvan** | Şirvan, Hacıqabul | **22** |
| 10. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Bərdə | **22** |
| 11. | **Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının sədri** İnam Kərimov | **Şəki** | Şəki, Qax | **23** |
| 12. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Şəmkir** | Şəmkir, Gədəbəy | **23** |
| 13. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli, Beyləqan, Xocavənd | **23** |
| 14. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Laçın | **23** |
| 15. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Quba** | Quba, Qusar | **23** |
| 16. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **24** |
| 17. | **Energetika naziri** Pərviz Şahbazov | **Sabirabad** | Sabirabad, Şirvan, Hacıqabul, Saatlı, İmişli | **24** |
| 18. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Quba** | Quba, Qusar | **24** |
| 19. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Yevlax** | Yevlax, Mingəçevir | **24** |
| 20. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Ağsu** | Ağsu, İsmayıllı | **24** |
| 21. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Şirvan** | Şirvan, Hacıqabul | **24** |
| 22. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Bərdə** | Bərdə, Naftalan, Ağcabədi, Ağdam, Tərtər, Füzuli, Laçın, Xocalı | **24** |
| 23. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **24** |
| 24. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Qax** | Qax, Şəki, Oğuz, Qəbələ, Zaqatala, Balakən | **24** |
| 25. | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | **Şabran** | Şabran, Siyəzən | **24** |
| 26. | **“Azəristiliktəchizat” ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Tovuz** | Tovuz, Ağstafa, Qazax | **24** |
| 27. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **İmişli** | İmişli, Beyləqan | **30** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 381** **Bakı şəhəri, 25 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379, № 7, maddə 1342, № 11, maddələr 1965, 1976, № 12, maddə 2239; 2018, № 8, maddələr 1793, 1795, № 12 (II kitab), maddə 2730; 2019, № 1, maddə 165, № 3, maddə 532, № 7, maddələr 1318, 1334; 2020, № 10, maddə 1269, № 11, maddə 1389; 2022, № 4, maddə 382, № 9, maddə 1100, № 12, maddə 1552; 2023, № 6, maddə 846) ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci hissəyə aşağıdakı məzmunda 1.4-cü bənd əlavə edilsin:

“1.4. Bu Qaydaların məqsədləri üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Bu sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”.

**2.** 2-ci hissə üzrə:

2.1. 2.1-ci bəndin üçüncü cümləsi dördüncü cümlə hesab olunsun və həmin bəndə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Notarius tərəfindən təsdiq olunmuş ərizə üzrə məlumatlar Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin “Elektron notariat” informasiya sistemindən bu Qaydaların 1.3.3-cü yarımbəndinə uyğun olaraq Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Ünvanlı yardım” (VEMTAS) altsisteminə (bundan sonra - VEMTAS) ötürülür.”;

2.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

“2.1-1. Təmsilçilik barədə ərizə bu Qaydaların 2.1-ci bəndinə uyğun olaraq təsdiq edildikdən sonra müraciət üçün 90 (doxsan) gün müddətində, sosial yardım təyin olunduğu halda isə sosial yardımın alındığı dövrdə qüvvədədir.”;

2.3. 2.2-ci bənddə “Elektron hökumət” və ya Nazirliyin “e-sosial” internet portallarında” sözləri “Elektron Hökumət İnformasiya Sistemi və ya Nazirliyin “e-sosial” internet portalında” sözləri ilə, “Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Ünvanlı yardım” (VEMTAS) altsisteminə (bundan sonra - VEMTAS)” sözləri “VEMTAS-a” sözü ilə əvəz edilsin.

**3.** 3-cü hissə üzrə:

3.1. 3.2-ci bənddə “Elektron hökumət” portalı” sözləri “Elektron Hökumət İnformasiya Sistemi” sözləri ilə əvəz edilsin;

3.2. 3.3-cü bənddən “ünvanlı” sözü çıxarılsın;

3.3. 3.4-cü bəndin birinci cümləsində “, foto çəkilişi və səs yazısı” sözləri “və foto çəkilişi” sözləri ilə əvəz edilsin;

3.4. aşağıdakı məzmunda 3.4-1-ci bənd əlavə edilsin:

“3.4-1. Sosial yardım təyin olunmuş ailənin tərkibi, yaşayış ünvanı dəyişmədikdə və ailədə ailə başçısını itirməyə görə əmək pensiyası və ya sosial müavinət alan, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ailə üzvü və ya orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş 2 (iki) və daha çox ailə üzvü, 3 (üç) və daha çox uşaq olduqda sosial yardımın təyin edilmə müddəti bitdikdən sonra həmin ailənin sosial yardımın alınması üçün növbəti 1 (bir) il ərzində təkrar müraciəti Bölmənin və ya Mərkəzin sosial yardım üzrə işçisinə tapşırıq göndərilmədən VEMTAS tərəfindən araşdırılır və sosial yardımın təyin olunması və ya təyin olunmasından imtina edilməsi barədə müvafiq qərar çıxarılır.”;

3.5. 3.7.5-ci yarımbəndə “bölməsi” sözündən sonra “və ya Mərkəz” sözləri əlavə edilsin;

3.6. aşağıdakı məzmunda 3.7-1-ci bənd əlavə edilsin:

“3.7-1. Bölmə və ya Mərkəzin sosial yardım üzrə işçisi tərəfindən ailənin maddi-məişət şəraitinin müayinəsi aparılarkən aşağıdakı halların aşkar edilməsi səbəbindən sosial yardımın təyin olunma-sından imtina edilməsi barədə müvafiq qərar çıxarıldıqda və həmin ailənin növbəti müraciəti zamanı bu hallar aradan qaldırılmadıqda maddi-məişət şəraitinin müayinəsi aparılmadan ailəyə sosial yardımın təyin olunmasından imtina edilməsi barədə müvafiq qərar çıxarılır:

3.7-1.1. ailənin “Ərizə-bəyannamə”də göstərdiyi ünvan düzgün olmadıqda;

3.7-1.2. ailənin əmlakı barədə məlumat düzgün göstərilmədikdə.”.

**4.** 4-cü hissə üzrə:

4.1. 4.4-cü bənddə “Təmsilçinin müraciəti əsasında” sözləri “15 (on beş) iş günü müddətində” sözləri ilə əvəz edilsin;

4.2. 4.5-ci bənddə “Sosial” sözü “Təmsilçi vəfat etdikdə, habelə sosial” sözləri ilə, “Təmsilçinin” sözü “ailənin” sözü ilə əvəz edilsin;

4.3. aşağıdakı məzmunda 4.8-1-ci bənd əlavə edilsin:

“4.8-1. Aşağıdakı hallar istisna olmaqla, ailənin tərkibində dəyişikliklər baş verdikdə sosial yardımın ödənişi dayandırılır və ailənin sosial yardım almaq hüququna Təmsilçinin müraciəti əsasında yenidən baxılır:

4.8-1.1. ailədə yeni uşaq doğulduqda və ya övladlığa götürüldükdə;

4.8-1.2. ailə üzvü (üzvləri) vəfat etdikdə (Təmsilçi istisna olmaqla);

4.8-1.3. ailə üzvü müddətli həqiqi hərbi xidmətə çağırıldıqda və ya müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqda;

4.8-1.4. bu Qaydaların 1.2.2-ci və 1.2.3-cü yarımbəndlərində qeyd olunan müddətlər başa çatdıqda.”.

**5.** 5-ci hissə üzrə:

5.1. 5.1-ci bəndin ikinci cümləsindən “və yaxud əldə oluna biləcək” sözləri çıxarılsın;

5.2. 5.2-ci bənd ləğv edilsin;

5.3. 5.3-cü bənddə “və mənbəyi bəlli olan digər mənbələrdən (o cümlədən bilavasitə yerində araşdırmaqla)” sözləri “mənbələrdən (o cümlədən ailənin maddi məişət şəraitinin müayinəsi zamanı aparılan video və foto çəkiliş üzrə məlumatlardan)” sözləri ilə əvəz edilsin;

5.4. 5.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

“5.9. Ailə üzvünün aldığı cari transfertlərə bütün növ pensiyalar, sosial müavinətlər və kompensasiya xarakterli ödənişlər (5.24.3-cü yarımbənddə göstərilən hallar istisna olmaqla), təqaüdlər, maddi yardımlar (5.24.2-ci yarımbənddə göstərilən hallar istisna olmaqla), qrantlar, aliment, sığorta ödənişi aiddir.”;

5.5. 5.22-ci bənddə qeyd olunan hesablama qaydasında “30” rəqəmləri “32.6” rəqəmləri ilə, “11.7” rəqəmləri “15.6” rəqəmləri ilə, “6.1” rəqəmləri “7.2” rəqəmləri ilə əvəz edilsin;

5.6. 5.24.3-cü yarımbəndə “müavinətlər” sözündən sonra “və kompensasiyalar” sözləri əlavə olunsun və həmin yarımbənddə “və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərə birdəfəlik müavinət” sözləri “, penitensiar müəssisələrdə cəza çək-məkdən azad edilmiş şəxslərə birdəfəlik müavinət və valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, habelə onların arasından olan şəxslərə ilk dəfə işə düzələn zaman ödənilən birdəfəlik müavinət və paltar, ayaqqabı, yumşaq ləvazimat və avadanlıq əvəzinə verilən pul kompensasiyası” sözləri ilə əvəz edilsin.

**6.** 7-ci hissə ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2023-cü ilin noyabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Baş nazirin birinci müavini Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| Baş nazirin müavini Əhmədov Əli Cavad oğlu | 2 |
| Baş nazirin müavini Mustafayev Şahin Abdulla oğlu | 3 |
| Aparatın rəhbəri Məmmədov Rüfət Tofiq oğlu | 4 |
| İqtisadiyyat şöbəsinin müdiri Əmiraslanov Azər Kamal oğlu | 6 |
| Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri Rüstəmli Ruslan Rüstəm oğlu | 22 |
| Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Paşayev Zakir İlqar oğlu | 13,27 |
| Hüquq və qanunvericilik şöbəsinin müdiri Qasımlı Xalid Akif oğlu | 14,28 |
| Sosial məsələlər şöbəsinin müdiri Rəhimov Niyazi Süleyman oğlu | 15,29 |
| Humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini icra edən Həbibbəyli Ərəstü İsa oğlu | 16 |
| Sənaye və energetika şöbəsinin müdiri Hacızadə Elşən Mahmud oğlu | 17 |
| Aqrar və ekologiya şöbəsinin müdiri Qasımov Lətif Cəfər oğlu | 20 |
| Regionların inkişafı şöbəsinin müdiri Məcidov İlkin Sabir oğlu | 21 |
| Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri Mustafayev Feyruz Rəvayət oğlu | 7,30 |
| Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Pənahov Musa Sədi oğlu | 23 |
| Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri Məmmədov Anar Rəhim oğlu | 24 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 379** **Bakı şəhəri, 25 oktyabr 2023-cü il**

***“Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

“Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992, № 11, maddə 1404; 2021, № 1, maddə 102, № 4, maddə 412, № 7, maddə 883, № 8, maddə 963, № 10, maddə 1168, № 12, maddə 1540; 2022, № 3, maddə 260, № 4, maddə 418, № 6, maddə 667, № 8, maddə 963, № 9, maddə 1094, № 12, maddə 1537; 2023, № 1, maddə 142, № 3, maddələr 434, 441, № 5, maddə 728; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 avqust tarixli 288 nömrəli Qərarı) 2-ci hissəsində “2023-cü il oktyabrın 2-dək” sözləri “2024-cü il yanvarın 2-dək” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 380** **Bakı şəhəri, 25 oktyabr 2023-cü il**

***“Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı”nın verilməsi Qaydasının və həmin Təhsil Qrantının məbləğinin təsdiq edilməsi haqqında***

“Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 iyul tarixli 3956 nömrəli Sərəncamının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı”nın verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı”nın məbləği” təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Respub-likasının Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# İcma: Yeganə məqsədimiz dədə-baba yurdlarımıza dinc şəkildə qayıtmaqdır

**Qərbi Azərbaycan İcmasının Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç ilə görüşməsinə, bu günlərdə Varşavada ATƏT-in İnsan Ölçüsü Konfransı çərçivəsində tədbir keçirməsinə, Haaqada ATƏT-in milli azlıqlar üzrə komissarlığının tədbirində iştirakına Ermənistanın verdiyi reaksiya bir daha bu dövlətin siyasətində azərbaycanlılara qarşı olan etnik nifrətin səviyyəsini göstərir.**

Bu fikirlər Qərbi Azərbaycan İcmasının mövzu ilə bağlı bəyanatında yer alıb.

Bəyanatda, həmçinin vurğulanır ki, Qərbi Azərbaycan İcması bir daha bildirir ki, onun Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə qarşı iddiası yoxdur və yeganə məqsədi azərbaycanlıların Ermənistandakı dədə-baba yurdlarına dinc şəkildə qayıdışını təmin etməkdən ibarətdir.

***XQ***

# Bakıda "Olimpiya günü"



**Beynəlxalq "Olimpiya Günü" münasibətilə Olimpiya Mərkəzində keçirilən mərasimdə MOK-un vitse-prezidentləri Çingiz Hüseynzadə və Zemfira Meftahətdinova, qurumun baş katibi Azər Əliyev, Elm və Təhsil nazirinin müavini Firudin Qurbanov, olimpiyaçılar, gənc idmançılar iştirak ediblər.**

Çingiz Hüseynzadə deyib ki, bu ilin iyun ayı mühüm idman yarışları ilə zəngin olub. Avropa Yeniyetmələrinin Olimpiya Festivalı, Avropa Oyunları və MDB Oyunları həmin vaxtda təşkil edilib. Bu səbəbdən, Beynəlxalq Olimpiya Komitəsinin razılığı ilə "Olimpiya günü" tədbirini bu günə təyin ediblər. Ölkəmizdə idmanın yüksəlişi, olimpiya hərəkatının inkişafı çox sürətli və uğurludur.

O bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev 1997-ci ildə MOK-un rəhbəri seçiləndən sonra ölkədə Olimpiya hərəkatı genişlənib. İdman sahəsində sürətli inkişaf nəticəsində atletlərimiz Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında böyük nailiyyətlər əldə ediblər.

Elm və Təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, Azərbaycan ilk dəfə Olimpiya Oyunlarında iştirak edəndə cəmi bir qızıl medal qazanılmışdı. Lakin illər keçdikcə nailiyyətlərimiz artmağa başladı. Olimpiya Oyunlarında idmançılarımızın parlaq çıxışları ölkəmizi dünyada tanıdır.

Sonra Olimpiya Mədəniyyəti və Təhsil Proqramı (OCEP) məktəblilərinin iştirakı ilə əyləncəli idman yarışı keçirilib.

Qaliblər kubok, diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar.

***Leyla QURBANOVA***
***XQ***

# 80 yaşlı "gənc" qarmon ifaçısı



**Ölkəmizdə qarmon sənətində böyük nailiyyətlərə imza atan sənətkarlardan biri də Zakir Mirzəyevdir. Virtuoz ifaçının Azərbaycan Radiosunun Qızıl fonduna daxil olmuş 100-ə qədər musiqi, rəqs nümunələri var.**

Bir sıra tanınmış melodiyaların bəstəkarı olan Zakir Mirzəyevin Beynəlxalq Muğam Mərkəzində 80 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Gecədə Xalq artisti, bəstəkar Siyavuş Kərimi, Xalq artisti, Şöhrət ordenli bəstəkar Tofiq Bakıxanov və yubilyarın digər sənət dostları onun haqqında yüksək fikirlər söylədilər, xatirələrini bölüşdülər.

Bakı Elm-Təhsil Mərkəzinin direktoru, professor Fərahim Sadıqov Zakir Mirzəyevi təkcə ustad qarmon ifaçısı deyil, həm də pedaqoji fəaliyyətlə məşğul olan müəllim kimi xarakterizə etdi: "Zakir, təkcə Azərbaycanda deyil, bir çox ölkələrdə musiqinin predmetini araşdırıb, eksperimentlər aparıb. Onun araşdırmaları bu gün də tələbələri tərəfindən öyrənilir".

Sonra, yubilyara Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə hazırlanmış qızıl imza nişanı hədiyyə olundu və Azərbaycan Respublikası Elm-Təhsil Mərkəzinin profesoru fəxri diplomu verildi.

Tədbir çərçivəsində Xalq artisti Ənvər Sadıqovun rəhbərliyi ilə "Qaytağı" instrumental ansamblının təqdimatında yubilyarın "Gülşəni", "İlhamı", "Zakirsayağı", "Rast təsnifi", "Dostluqda nümunə İlqarağa" adlı kompozisiyaları səsləndirildi. 80 yaşlı qarmon ustasının öz ifasında da şən, oynaq melodiyalar dinlənildi. Xalq artistləri Teyyub Aslanov, Eyyub Yaqubov, Gülyanaq Məmmədova da öz çıxışları ilə məclisə rəng qatdılar.

Onu uzun illərdir nağarada müşayiət edən nağara ifaçısı, ritm sənətinin ustası Elşən Qasımov XQ-yə Zakir Mirzəyevlə bağlı xatirələrini danışdı:

– Zakir müəllimlə 1983-cü ildən tanışam. O, dəvət olunduğu bütün məclislərdə, toylarda dinləyiciləri tərəfindən alqışa layiq görülüb, böyük rəğbətlə qarşılanıb. Dostuma yeni-yeni uğurlar arzulayıram.

Sonda yubilyarın da ad günü ilə bağlı təəsuratlarını öyrəndik:

– Bu yaşımda da özümü çox gümrah hiss edirəm. Artıq neçənci dəfədir ki, yubiley gecəm belə böyük təmtəraqla təşkil olunur. Buna görə bütün təşkilatçılara, məni sevib gələnlərə minnətdarlığımı bildirirəm.

***Fidan SALMANOVA***
***XQ***

# Samux Rayon İcra Hakimiyyətinin başçısı kollektivə təqdim edilib



**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Samux Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Firdovsi Şahmirzə oğlu Əliyev oktyabrın 26-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.**

Təqdimatda Zeynal Nağdəliyev çıxış edərək dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

F.Əliyev ona göstərilən etimada görə minnətdarlıq edib.

***XQ***

# MN: Qarabağ bölgəsində aşkarlanan sursatların bir hissəsi 2021-ci ildə istehsal edilib




**Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra əraziyə baxış zamanı aşkarlanan "TOS-1A" odsaçan sistemin raketlərindən bir hissəsinin 2021-ci ildə istehsal olunduğu müəyyənləşdirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bundan başqa, bölgədə aşkar edilən "Kornet" və "Faqot" tank əleyhinə raket komplekslərinin idarə olunan raketlərdən bəzilərinin 2020-ci ilin sonunda bağlanmış müqaviləyə əsasən Ermənistan tərəfindən istehsalçıdan birbaşa, bəzilərinin isə üçüncü dövlət vasitəsilə satın alınaraq Qarabağa gətirildiyi müəyyən edilib.

Bu faktlar lokal xarakterli antiterror tədbirlərinə qədər Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə Laçın yolu vasitəsilə qanunsuz hərbi daşımaların həyata keçirildiyinin əyani sübutudur.

# "Time" reallığa böhtan atır

## ABŞ jurnalında erməni müəllifin sayıqlamalarına sözardı

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev müsahibənin davamında ona ünvanlanmış "Bu gün qarşı tərəfə mesajınız nədən ibarətdir?" sualına cavab olaraq isə deyib: "...Mən sualı iki hissəyə bölərdim. Birincisi, əgər onlar mənim söylədiklərimə qulaq asırlarsa, mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik, bizim Ermənistana qarşı ərazi iddialarımız yoxdur. Baxmayaraq ki, müharibədən əvvəl yüz minlərlə azərbaycanlı Ermənistanda yaşayıb və bütövlüklə etnik təmizləməyə məruz qalıb, onların mədəni və dini irsi tamamilə məhv edilib. Bununla belə, bizim heç bir ərazi iddiamız yoxdur. Lakin biz düşünürük ki, Azərbaycan və Ermənistan əlaqələrini normallaşdıranda və diplomatik münasibətlər quranda, Ermənistandan zorla deportasiya olunmuş azərbaycanlıların qayıtmaq hüququ var".

Dövlətimizin başçısı müsahibə zamanı Azərbaycanın müharibə istəmədiyini aydın şəkildə ifadə edib: "Onlara digər mesaj ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır. Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya gələcəklər. Azərbaycan öz torpaqları uğrunda döyüşməyəcək, azərbaycanlılar artıq işğalla barışıblar. Bütün bu hekayələr tamamilə yanlış idi və təbliğatdan başqa bir şey deyildi. Beləliklə, müharibə bu hekayələri məhv etdi və bu, təkcə bununla bitmədi. O, həmçinin Ermənistan dövlətinin çox sayda ideoloji sütunlarını dağıtdı. Onlar dərk etdilər ki, müharibəni uduzublar və bu, onlar üçün psixoloji cəhətdən çox ağrılı oldu. İndi biz sülh istədiyimizi deyəndə, bu, ona görə deyil ki, biz zəifik və sülh axtarırıq. Xeyr, onlar bilirlər ki, biz xeyli güclüyük. Bu ona görədir ki, biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik".

Sonuncu dəfə oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə Füzuliyə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxış edən Prezident İlham Əliyev bu mövzuda bildirib ki, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Zəngəzura da, əlbəttə ki, qayıdacağıq, amma sülh yolu ilə. Mən demişəm, məni bəziləri ittiham etməyə çalışırlar, mən dedim ki, biz oraya tanklarla yox, minik maşınları ilə qayıdacağıq.



Azərbaycan Prezidentinin köməkçisi– Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev isə "Politico" nəşrinə açıqlamasında ölkəmizin Zəngəzurla bağlı ərazi iddiasının olmadığını vurğulayıb.

Bundan əlavə, Qərbi Azərbaycan İcmasının dünən yaydığı bəyanatda da icmanın Ermənistana qarşı heç bir ərazi iddiasının olmadığı bildirilib. Qeyd olunub ki, Ermənistan hökuməti dialoqdan qaçmaq üçün icmanın, guya, ona qarşı ərazi iddiası irəli sürdüyünü iddia edir. "Qərbi Azərbaycan İcması bir daha bildirir ki, onun Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə qarşı heç bir iddiası yoxdur və yeganə məqsədi azərbaycanlıların dinc şəkildə Ermənistanda dədə-baba yurdlarına qayıdışını təmin etməkdən ibarətdir", – deyə bəyanatda vurğulanır.

Verilən yüksək səviyyəli açıqlamalara, imzalanan bəyanatlara baxmayaraq, Qərbin bir sıra media subyektləri yenə də Azərbaycanın Ermənistan ərazisinə hücuma hazırlaşdığını iddia edirlər. Bu istiqamətdə ilk olaraq Avropa İttifaqının siyasi həyatı ilə bağlı məlumatlar yayan və baş ofisi Brüsseldə yerləşən "Politico Europe" nəşri məlumat yaymışdı. Nəşr ABŞ-ın Dövlət katibi Antoni Blinkenin konqresmenlərlə görüşündə, guya, Azərbaycanın Ermənistana mümkün hücumu ilə bağlı xəbərdarlıq etdiyi barədə məqalə dərc etmişdi.

Bundan sonra "Vaşinqton Post" qəzetində "Azərbaycan Qarabağdan sonra Ermənistanın strateji zolağına göz dikib" sərlövhəli məqalə dərc olunmuşdu. Qəzetin əməkdaşının Zəngəzur dəhlizi üzərində dəmir yolu stansiyası olan Mehridən (Meğri) hazırladığı reportajda bildirilirdi ki, Mehri strateji yolayrıcındadır. Azərbaycan, İran, Türkiyə və Rusiya da daxil olmaqla, regional güclərin bura giriş üçün yarışması Mehrinin tezliklə özünü yeni müharibənin mərkəzində tapa biləcəyi qorxusunu artırır.

Bu sırada "The Financial Times" qəzetində dərc olunan "Azərbaycanın Ermənistan anklavı (?) üzərində qələbəsi növbəti müharibə qorxusunu artırır" sərlövhəli məqalə də diqqətdən yayınmır. Həmin yazıda qeyd olunurdu ki, Azərbaycan cəmi 24 saat ərzində bölgəni (qondarma rejimin mövcud olduğu ərazilər nəzərdə tutulur–S.H.) nəzarətə götürüb. Qəzet cəfəng iddiaları davam etdirərək yazır: "Lakin Bakının davranışı yeni sülh dövrünü müjdələmək əvəzinə, qonşu Ermənistanı onun ambisiyalarının daha böyük olduğundan və münaqişənin hələ bitmədiyindən şübhələnməyə sövq edir".

Azərbaycana qarşı yumşaq desək, qeyri-obyektiv yazıların dərc olunduğu Qərb mediasının siyahısını hələlik "Time" jurnalı bağlayır. Bir neçə gün öncə jurnalda "Azərbaycan Ermənistanı işğal edə bilər. ABŞ müdaxilə etməlidir" sərlövhəli məqalə dərc olunub. Qeyd olunub ki, oktyabrın 23-25-də keçirilən Türkiyə–Azərbaycan birgə hərbi təlimləri Azərbaycanın Ermənistana yaxınlaşan müdaxiləsinin (?) sübutudur. ABŞ-ın bunun qarşısını alması mümkündür və bunu etməlidir.

"İndi – dünya Qəzza zolağına baxdığı zaman ekspertlər Türkiyə ilə Azərbaycanın növbəti hədəfinin (?) suveren Ermənistan olduğuna inanırlar və ABŞ bu hadisələrdən xəbərdardır", – deyə jurnal yazıb.

Qeyd etmək yerinə düşər ki, məqalənin milliyyətcə erməni olan müəllifi Simon Maqakyan, sözün əsl mənasında, sayıqlayıb. O, rəmzlərə diqqət yönəldərək belə bir nəticəyə gəlib ki, Azərbaycanın hərbi yük maşınlarının üzərindəki nida işarəsi Ermənistanın cənubunun "kəsilmiş hissəsini" simvolizə edir. Bundan əlavə, birgə hərbi təlimlərin tarixi Türkiyə Respublikasının elan olunmasının 100 illiyi şərəfinə oktyabrın 29-da keçiriləcək mərasimlərə yaxındır.

Müəllif təlimlərin adı ilə bağlı da "dərin düşüncələrə" dalıb və belə bir qənaətə gəlib: "Qarabağdakı etnik təmizləmə (?) ilə Bakı və Ankaranın ekspansionist ambisiyaları arasında əlaqəni hərbi təlimlərin adı da sübut edir – "Mustafa Kamal Atatürk–2023".

Daha sonra Maqakyan rəsmi Vaşinqtondan gileylənib. Müəllifin fikrincə, ABŞ hələ sentyabr ayında Qarabağda "etnik təmizləmə"nin qarşısını almaq üçün alətlərə malik idi, lakin Bayden Administrasiyası sülh çağırışları ilə məhdudlaşırdı. Bildirilir ki, ABŞ bu məsələlərdən xəbərdardır, lakin Ukrayna və İsraili daha çox dəstəkləyir. "Bu isə bizi belə bir nəticəyə gəlməyə vadar edir ki, bəzi ölkələr bəzilərinin həyatı kimi, digərlərindən daha dəyərlidir", – erməni müəllif Vaşiqtondan ümu-küsü edir.

"Time" jurnalında dərc olunan və cəfəng iddialarla bol olan məqalə bir daha sübut edir ki, özünü müstəqil, qərəzsiz, obyektiv və bitərəf adlandıran Qərb mediasının bəzi nümayəndələri, əslində, Azərbaycana qarşı təbliğatda müxtəlif dövlətlərin, yaxud siyasi qüvvələrin əlində alətə çevriliblər. Onlar proseslərlə bağlı birtərəfli və yalan məlumatlar yayaraq, auditoriyanı məqsədli şəkildə yanlış istiqamətə yönəldirlər. Ancaq müdrik atalarımız "Yalan ayaq tutar, amma yeriməz" – deyiblər. Onların yazdıqlarının cəfəngiyyat olduğunun sübuta yetirilməsi üçün də zamana ehtiyac var.

***Səxavət HƏMİD***
***XQ***

**Ekspert rəyi**



**Aydın QULİYEV,**
**siyasi şərhçi**

**– Azərbaycanın, guya, Zəngəzur dəhlizinin açılması üçün Ermənistana hücum edəcəyi fikri, təbii ki, uydurma və böhtandır. Bu yanlış tezis ilk dəfə dövriyyəyə ABŞ Dövlət katibi Antoni Blinkenin adından buraxılsa da, dərhal elə Dövlət Departamenti tərəfindən belə bir fikrin səsləndirildiyi təkzib edildi. Buna baxmayaraq, görünür, bəzi beynəlxalq dairələr Azərbaycanla bağlı siyasətlərinin onlara sərf etdiyi məqamlarda yanlış tezislər üzərində qurulmasında belə maraqlıdırlar. Bu səbəbdən deyilən tezisin yalan olub-olmamasının onlar üçün elə bir fərqi yoxdur.**

**Ölkəmizin, guya, Ermənistana hücum edəcəyi ilə bağlı yanlış tezis, əslində, məqsədyönlü şəkildə dövriyyəyə buraxılıb. Bəzi dövlətlər və beynəlxalq təşkilatlar da bu cəfəng fikri həvəslə, necə deyərlər, ortada fırladırlar. Çünki bu, onların müəyyən niyyətlərinə və planlarına uyğun gəlir. O mənada ki, bu gün Ermənistanı silahlandıran bəzi beynəlxalq dairələr, o cümlədən, Fransa İrəvanın silahlandırılmasına haqq qazandırmaq, buna "zərurət donu" geyindirmək üçün Azərbaycanın hücuma hazırlaşdığına dair yalanı sırımağa çalışır. Bununla onlar ölkə daxilində ictimai rəydə yarana biləcək suallara hazır cavab tapmağa çalışırlar. Eyni zamanda, Ermənistanı müdafiə görüntüsü altında bölgəmizə soxulmağa cəhd edirlər. Odur ki, Azərbaycanın Türkiyə ilə birgə Ermənistana hücum edəcəyi fikri tamamilə yanlışdır və böhtandır.**

# BİLDİRİŞ

## Ləğv prosesində olan “Muğan Bank” ASC -nin kreditorlarının nəzərinə!




Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 24 oktyabr 2023-cü il tarixli, 2-3(103)-54/202 nömrəli qərarı ilə “Muğan Bank” ASC müflis elan edilmiş və **Əmanətlərin Sığortalanması Fondu Bankın ləğvedicisi** təyin edilmişdir.

**27 oktyabr 2023-cü il** tarixdən etibarən ləğv prosesində olan “Muğan Bank” ASC-yə qarşı tələblərin yazılı şəkildə qeydə alınmasına başlanılacaqdır. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, müflis banka qarşı tələblər bankın müflis elan olunmasına dair məhkəmə qərarının mediada ilk dəfə dərc edildiyi gündən 60 təqvim günü ərzində ləğvedici tərəfindən yazılı şəkildə qeydə alınmalıdır. Məlumat üçün bildiririk ki, tələblərin qeydə alınması üçün kreditorlar öz tələblərinin hüquqi əsasını sübut edən sənədləri və aşağıdakı məlumatları təqdim etməlidirlər:

– kreditorun adı və ünvanı;

– tələbin əsas məbləğinə daxil edilən faizlərin və digər haqların məbləğləri;

– tələbin təminatı olan girov (ipoteka) və ya qarantiya barəsində məlumat.

**Ləğv prosesində olan “Muğan Bank” ASC–nin kreditorlarından xahiş olunur ki, 25 dekabr 2023-cü il tarixədək kreditor tələblərinin qeydiyyatı alınması üçün aşağıda qeyd olunan ünvana müraciət etsinlər:**

Ləğv prosesində olan “Muğan Bank” ASC–nin **Baş ofisi**.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli 21B.

Əlaqə: (+994) 941.

# Gücümüz bir qola çatdı

**Dünən UEFA Avropa Liqasının qrup mərhələsinin III turunda Almaniyada Leverkuzenin “Bayer” və Ağdamın “Qarabağ” komandaları qarşılaşıblar.**



“Bay Arena”da keçirilən oyunda meydan sahibləri 5:1 hesabı ilə irəli çıxaraq daha güclü olduqlarını nümayiş etdiriblər. Rəqibə müqavimət göstərən “Qarabağ”ın isə yalnız bir qol vurmağa gücü çatıb. Həmin qola 11 metrlik cərimə zərbəsindən Toral Bayramov imza atıb.

Oyundan sonra “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov bildirib:

– Çox yaxşı bir komandaya məğlub olduq. Futbolçularımız çox əziyyət çəkdilər. Rəqib topla çox yaxşı davranırdı. Bunu əvvəldən də görmüşdük. Həddindən artıq yaxşı komandadır. Bütün xətlərdə ustalıq səviyyəsi aşağıda olan futbolçu yox idi. Bundan başqa, oyun sistemlərini də yaxşı yerinə yetirirdilər. Reallığa baxmalıyıq. Səviyyə fərqi elə-belə deyil.

**XQ**

## “Bakı Texnika Sənaye” ASC səhmdarlarının nəzərinə!

1 dekabr 2023-cü il, saat 11.00-da “Bakı Texnika Sənaye” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin ləğv edilməsinin müzakirəsi.

**2.** Ləğvetmə komissiyasının yaradılması barədə.

**3.** Ləğvetmə komissiyasının səlahiyyətlərinin müəyyənləşdirilməsi barədə.

**4.** Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan–13.00-dək cəmiyyətin idarə heyətinin sədrinə müraciət edə bilərlər.

Ünvan – Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov şəhər tipli qəsəbə, Bünyadov küçəsi 11.

Əlaqə telefonu – 012-363-07-04.

## “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin

## Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

“Türyançay sol sahil kanalının yenidən qurulması”
I mərhələnin təkliflər sorğusu üsulu ilə satın alınması üzrə

### TENDER ELAN EDİR:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və ya “Xalq qəzeti”ndən tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar obyekt üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqədə iştirak edə bilərlər.

Əlaqələndirici şəxs: QulamAslanov.

Satınalan təşkilatın ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti-69a.

Əlaqələndirici şəxsin E-mail ünvanı: tomiobm@mst.gov.az

Əlaqə nömrəsi: (012) 431 08 64

**Satınalma predimetinin adı:** “Türyançay sol sahil kanalının yenidən qurulması” I mərhələnin tikintisi

**Ünvanı:** Ağdaş və Ucar rayonu

**İşlərin qısa təsviri:** Ağdaş və Ucar rayonlarında 11335 ha ərazinin suvarılması məqsədilə, uzunluğu 11,643 km, o cümlədən: düzbucaqlı 4,525 km və trapes şəkilli 6,991 km, suburaxma qabiliyyəti Q=10,5m3/san, dəmir-beton iş həcmi - 17215 m3 və üzərində müxtəlif növ qurğular: sudüşürən, suburaxan, borulu keçid, səviyyəqaldıran, akveduk, avtomobil və piyada keçidi və s. tikintisi.

**İşlərin yerinə yetirilmə müddəti** – 12 ay.

**Tender təkliflərinin qiymətləndirməsi meyarları:**
**Tender təklifinin ödəniş şərti - 10 bal**

-İddiaçı bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi

tələb etmədiyi halda bu meyar üzrə müəyyən olunmuş maksimal 10 bal alacaqdır.

İddiaçı tender təklifində 20 faizdən artıq avans ödənişi tələb edərsə, həmin iddiaçının tender təklifi kənarlaşdırılacaqdır. 20 faiz və daha az avans ödənişi tələb olunan tender təklifinin bu meyar üzrə alacağı bal aşağıdakı düstur əsasında hesablanacaq, (20 – X)/20x10 X - tender təklifində iddiaçı tərəfindən tələb olunan avans ödənişinin müqavilə qiymətinə nisbətdə faizi.

**Qiymət təklifi – 90 bal**

Satınalma müqaviləsinin icrasını təmin etmək üçün tender iştirakçıları lazımi kadr və maliyyə imkanları ilə yanaşı, aşağıdakı meyarlar üzrə ixtisas göstəricilərinə, təcrübəyə, səriştəyə və etibarlılığa malik olmalıdır:

**• İddiaçının son 10 (on) ildə meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi üzrə apardığı işlər tərkibində müxtəlif suburaxma qabiliyyətinə malik mağistral kanalın və onlar üzərində tikilən müxtəlif növ hidrotexniki qurğuların tikintisi və ya əsaslı təmir-bərpası üzrə orta illik dövriyyəsi 3 (üç) milyon manatdan az olmamalıdır;**

**• İddiaçı son 10 (on) il ərzində respublika ərazisində meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi üzrə apardığı işlər tərkibində əsas podratçı kimi suburaxma qabiliyyəti 3 m3/san az olmayan magistral kanalın və onlar üzərindəki müxtəlif növ hidrotexniki qurğuların tikintisi və ya əsaslı təmir-bərpası təcrübəsinə malik olmalı və həmin işlərə dair ən azı bir obyekt üzrə işbitirməni təsdiq edən sənədləri təqdim etməlidir;**

**• Satınalma müqaviləsinin icrasına yönəltmək məqsədi ilə İddiaçının malik olduğu sərbəst maliyyə resurslarının və ya bankın zamin olduğu kreditin minimum məbləği 2,0 (iki milyon) manatdan az olmamalıdır.**

**İştirak haqqı: 4000 (dörd min) manat.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

**1. Tender təklifi təkliflərinin açıldığı gündən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır.**

Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

**2. Tender təklifinin qiymətinin 1% -i məbləğində tender təklifinin təminatı (bank zəmanəti, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır** (bank tərəfindən təqdim edilməlidir).

**3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış.** (Vergi xidməti tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalıdır, sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir);

**4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.** (Son maliyyə dövrünə olan məlumatı əks etdirməsi və sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir);

**5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.** (Bank tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalıdır, sənədin əslini və ya notarial təsdiq edilmiş surəti təqdim edilməsi zəruridir);

**6. İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə.** (Kommersiya və hüquqi şəxslərin Dövlət qeydiyyatı reyestrindən çıxarış, iddiaçı tərəfindən təqdim edilməli, nizamnamənin, dövlət reyestrindən çıxarışın və şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surətini təqdim edilməsi zəruridir);

**7. Rekvizitlər.** (İddiaçının və ya bankın imzası və möhürü ilə təsdiq edilməsi zəruridir);

**8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.** (DİN və ya Asan xidmət tərəfindən təqdim edilməli, sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir); Sənədin verilmə tarixi elan verilmiş aydan etibarən olmalıdır: oktyabr 2023.

**9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması.** (Vergi xidməti tərəfindən təqdim edilməli, cari rübü əhatə etməlidir, sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir);

**10. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması.** (Müsabiqə ƏŞT BÖLMƏ №3 13.3.8 bəndinə və BÖLMƏ №7 Qoşma №7-yə əsasən iddiaçı tərəfindən təqdim edilməli);

**11. İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması.** (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilməli, sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir); Sənədin qüvvədə olma müddəti “Tələb olunan sənədlərin son təqdim olunma tarixini əhatə etməlidir”

**12. İddiaçının müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.** (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilməli sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir);

**13. Satınalma müqaviləsini bağlamaq səlahəyyətinin olması.**

(İmza səlahiyyəti olan şəxsin (əgər təsisçi direktor deyilsə) əmri, sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir);

İddiaçının ixtisas göstəriciləri ƏŞT-nin 3-cü “Əsas şərtlər toplusunun məlumat xəritəsi” bölməsinin 13.3.8-ci bəndində verilmiş tələblərə uyğun gəlməlidir. İxtisas göstəriciləri haqqında məlumat ƏŞT-nin 8-ci “Standart formalar” bölməsinin 7-ci “Podratçının ixtisas göstəriciləri haqqında məlumat” qoşmasında göstərilmiş forma və qaydada təqdim olunmalıdır

**İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, möhürlənib imzalanmış ayrı-ayrı ikiqat zərflərdə 14 noyabr 2023-cü il saat 17.00-dək Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti-69a ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.**

**İddiaçıların təklifləri 15 noyabr 2023-cü il saat 15.00-da açılcaqdır.**

***Tender komissiyası***

## “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin

## Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

*“Türyançay sağ sahil kanalının yenidən qurulması”*
*I mərhələnin təkliflər sorğusu üsulu ilə satın alınması üzrə*

### TENDER ELAN EDİR:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və ya “Xalq qəzeti”ndən tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar obyekt üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqədə iştirak edə bilərlər.

Əlaqələndirici şəxs: Qulam Aslanov.

Satınalan təşkilatın ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti-69a.

Əlaqələndirici şəxsin E-mail ünvanı: tomiobm@mst.gov.az

Əlaqə nömrəsi: (012) 431 08 64

**Satınalma predimetinin adı:** “Türyançay sağ sahil kanalının yenidən qurulması” I mərhələnin tikintisi

**Ünvanı:** Ağdaş rayonu

**İşlərin qısa təsviri:** Ağdaş rayonunda 12500 ha ərazinin suvarılması məqsədilə, uzunluğu 24,989 km, o cümlədən: suburaxma qabiliyyəti Q=8,5÷3,5m3/san, dəmir-beton iş həcmi - 21165 m3 və üzərində müxtəlif növ qurğular: sudüşürən, suburaxan, borulu keçid, səviyyəqaldıran, akveduk, avtomobil və piyada keçidi və s. tikintisi.

**İşlərin yerinə yetirilmə müddəti** – 13 ay.

**Tender təkliflərinin qiymətləndirməsi meyarları:**
**Tender təklifinin ödəniş şərti - 10 bal**

-İddiaçı bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi tələb etmədiyi halda bu meyar üzrə müəyyən olunmuş maksimal 10 bal alacaqdır.

İddiaçı tender təklifində 20 faizdən artıq avans ödənişi tələb edərsə, həmin iddiaçının tender təklifi kənarlaşdırılacaqdır. 20 faiz və daha az avans ödənişi tələb olunan tender təklifinin bu meyar üzrə alacağı bal aşağıdakı düstur əsasında hesablanacaq,

(20 – X)/20x10 X - tender təklifində iddiaçı tərəfindən tələb olunan avans ödənişinin müqavilə qiymətinə nisbətdə faizi.

**Qiymət təklifi – 90 bal**

Satınalma müqaviləsinin icrasını təmin etmək üçün tender iştirakçıları lazımi kadr və maliyyə imkanları ilə yanaşı, aşağıdakı meyarlar üzrə ixtisas göstəricilərinə, təcrübəyə, səriştəyə və etibarlılığa malik olmalıdır:

**• İddiaçının son 10 (on) ildə meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi üzrə apardığı işlər tərkibində müxtəlif suburaxma qabiliyyətinə malik mağistral kanalın və onlar üzərində tikilən müxtəlif növ hidrotexniki qurğuların tikintisi və təmir-bərpası üzrə orta illik dövriyyəsi 3 (üç) milyon manatdan az olmamalıdır;**

**• İddiaçı son 10 (on) il ərzində respublika ərazisində meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi üzrə apardığı işlər tərkibində əsas podratçı kimi suburaxma qabiliyyəti 3 m3/san az olmayan magistral kanalın və onlar üzərindəki müxtəlif növ hidrotexniki qurğuların tikintisi və ya əsaslı təmir-bərpası təcrübəsinə malik olmalı və həmin işlərə dair ən azı bir obyekt üzrə işbitirməni təsdiq edən sənədləri təqdim etməlidir;**

**• Satınalma müqaviləsinin icrasına yönəltmək məqsədi ilə İddiaçının malik olduğu sərbəst maliyyə resurslarının və ya bankın zamin olduğu kreditin minimum məbləği 2,0 (iki milyon) manatdan az olmamalıdır.**

İştirak haqqı: 4500 (dörd min beş yüz) manat.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

**1. Tender təklifi təkliflərinin açıldığı gündən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır.**

Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

**2. Tender təklifinin qiymətinin 1 faizi məbləğində tender təklifinin təminatı**

(bank zəmanəti, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır (bank tərəfindən təqdim edilməlidir).

**3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış.** (Vergi xidməti tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalıdır, sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir);

**4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.** (Son maliyyə dövrünə olan məlumatı əks etdirməsi və sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir);

**5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.** (Bank tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalıdır, sənədin əslini və ya notarial təsdiq edilmiş surəti təqdim edilməsi zəruridir);

**6. İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə.** (Kommersiya və hüquqi şəxslərin Dövlət qeydiyyatı reyestrindən çıxarış, iddiaçı tərəfindən təqdim edilməli, nizamnamənin, dövlət reyestrindən çıxarışın və şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surətini təqdim edilməsi zəruridir);

**7. Rekvizitlər.** (İddiaçının və ya bankın imzası və möhürü ilə təsdiq edilməsi zəruridir);

**8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.** (DİN və ya Asan xidmət tərəfindən təqdim edilməli, sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir);

Sənədin verilmə tarixi elan verilmiş aydan etibarən olmalıdır: oktyabr 2023.

**9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması.** (Vergi xidməti tərəfindən təqdim edilməli, cari rübü əhatə etməlidir, sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir);

**10. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması.** (Müsabiqə ƏŞT BÖLMƏ №3 13.3.8 bəndinə və BÖLMƏ №7 Qoşma №7-yə əsasən iddiaçı tərəfindən təqdim edilməli);

**11. İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması.**

(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilməli, sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir); Sənədin qüvvədə olma müddəti “Tələb olunan sənədlərin son təqdim olunma tarixini əhatə etməlidir”

**12. İddiaçının müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.** (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilməli sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir);

**13. Satınalma müqaviləsini bağlamaq səlahəyyətinin olması.** (İmza səlahiyyəti olan şəxsin (əgər təsisçi direktor deyilsə) əmri, sənədin əslini və ya notarial təsdiq edilmiş surətinin təqdim edilməsi zəruridir);

İddiaçının ixtisas göstəriciləri ƏŞT-nin 3-cü “Əsas şərtlər toplusunun məlumat xəritəsi” bölməsinin 13.3.8-ci bəndində verilmiş tələblərə uyğun gəlməlidir. İxtisas göstəriciləri haqqında məlumat ƏŞT-nin 8-ci “Standart formalar” bölməsinin 7-ci “Podratçının ixtisas göstəriciləri haqqında məlumat” qoşmasında göstərilmiş forma və qaydada təqdim olunmalıdır

**İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, möhürlənib imzalanmış ayrı-ayrı ikiqat zərflərdə 14 noyabr 2023-cü il saat 17.00-dək Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.**

**İddiaçıların təklifləri 15 noyabr 2023-cü il saat 15.00-da açılcaqdır.**

***Tender komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 235 (30351) 27 oktyabr 2023-cü il, cümə

## İdman xəbərləri

## "Böyük dəbilqə"də 2 bürünc

***Azərbaycan cüdoçuları Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən "Böyük dəbilqə" turnirində 2 bürünc medal qazanıblar.***



Komandamızın aktivinə medalları Leyla Əliyeva (48 kq) və Rəşid Məmmədəliyev (73 kq) yazdırıblar. Bu nəticə ilə yığmamız 13-cü yerdə qərarlaşıb.

Qeyd edək ki, 77 ölkədən 450 idmançının iştirak etdiyi yarışda Azərbaycan 14 idmançı ilə təmsil olunub.

## "Xankəndi" komandası yaradılacaq

***Azərbaycan Minifutbol Federasiyasının(AMF) prezidenti Orxan Məmmədov millinin sabiq futbolçuları ilə görüşüb.***



Federasiyadan "XQ"yə bildirilib ki, tədbirə Rəşad Sadiqov, Kamran Ağayev, Əfran İsmayılov, Cavid Hüseynov, Rahid Əmirquliyev, Elvin Məmmədov, Ruslan Əmircanov, Cavid İmamverdiyev və Elhad Nəzirov kimi tanınmış simalar qatılıblar. Orxan Məmmədov yığma komandamızın sabiq futbolçularının minifutbola maraq göstərməsindən məmnun olduğunu bildirib. Tədbirdə bu idman növünün ölkəmizdəki inkişafından və kütləviliyindən danışılıb, həyata keçirilən tədbirlərlə bağlı müzakirələr aparılıb, futbolçuların fikirləri dinlənilib.

Yekunda millinin sabiq futbolçularından ibarət "Xankəndi" komandasının yaradılması və onun ölkə çempionatında iştirakı qərara alınıb.

## Millimiz Tiranada 3-cü olub

***Albaniyanın paytaxtı Tiranada güləş üzrə U-23 dünya çempionatı keçirilib.***



Yarışda uğurla çıxış edən komandamız 2 gümüş, 3 bürünc medal qazanıb. Yığmamız ümumilikdə 87 xal qazanaraq komanda hesabında 3-cü yeri tutub. ABŞ 148 xalla 1-ci, Türkiyə 113 xalla 2-ci pillələrdə qərarlaşıblar.

Qeyd edək ki, millimizin heyətində mübarizə aparan Ziraddin Bayramov (65 kq) və Əşrəf Aşırov (79 kq) gümüş medal qazanıblar. Kənan Heybətov (70 kq), Abdulcəlil Şabanov (92 kq) və Vaxit Qalayev (125 kq) isə bürünc medala yiyələniblər.

## "Xarı Bülbül Şuşa" növbəti qələbə qazanıb



Kişi voleybolçulardan ibarət "Xarı Bülbül Şuşa" komandası Çelenc Kubokunda uğurlu çıxışını davam etdirir.

Şuşa təmsilçisi turnirin 1/32 finalında Slovakiyanın "TJ Spartak" klubu ilə qarşılaşıb. Bakıdakı Voleybol Mərkəzində keçirilən cavab oyununda voleybolçularımız rəqibə 3:1 hesabı ilə qalib gəliblər.

Qeyd edək ki, komandalar arasında keçirilən ilk oyunda "Xarı Bülbül Şuşa" hər üç setdə slovakiyalıları məğlub edib. Komandamız 1/16 finalda Yunanıstan klubu "Panatinaikos"la mübarizə aparacaq.

***Leyla SABİRQIZI***
**XQ**

## Kosmos

# Yeni planet sistemi

**Beynəlxalq astronomlar qrupu TESS teleskopunun arxiv məlumatlarını təhlil edib. Onlar əvvəllər məlum olmayan və Neptun ölçüsündə iki ekzoplanet aşkar ediblər. Bu, mahiyyətcə yeni planet sisteminin kəşfidir. Çünki kəşf edilmiş hər iki ekzoplanet TOI-5126 kimi tanınan parlaq ulduzun ətrafında dövr edir.**



Yeni kəşf edilən planetlər ölçülərinə görə Günəş sistemindəki ən uzaqdakı planetə oxşayır. Ulduza ən yaxın olan ekzoplanet TOI-5126 b adlanır. Onun radiusu təqribən 4,74 Yer radiusu qədərdir. Bu da o deməkdir ki, Neptundan təxminən 22 faiz böyükdür. Planet öz ulduzunun ətrafında hər 5,46 gündə bir dövr edir və ondan təxminən 0,065 astronomik vahid məsafədə yerləşir. Yeni planet sistemi Yerdən 525 işıq ili uzaqdadır.

## Yupiterdə reaktiv axın

**Yupiterdə əvvəllər məlum olmayan, eni 4800 kilometrdən çox olan reaktiv axın aşkar edilib. Bu axın Yerdəki ən güclü qasırğalardan iki dəfə sürətlə hərəkət edir. NASA-nın məlumatına görə, o Yupiterin ekvatorunda, onun əsas bulud təbəqələrinin üstündə yerləşir. Alimlər etiraf edirlər ki, reaktiv axının mövcudluğu faktı onları çox təəccübləndirib. Onun kəşfi Yupiterin turbulent atmosfer təbəqələrinin bir-biri ilə necə qarşılıqlı əlaqədə olduğuna dair yeni fikirlər verir.**




Yeni kəşf edilmiş reaktiv axın olduqca yüksək sürətlə hərəkət edir. Bu, saatda təxminən 515 kilometrdir. Hesablamalar göstərib ki, reaktiv axın Yupiterin əsas buludlarından təxminən 40 kilometr yüksəklikdə yerləşir. Əlavə müşahidələr bu axının sürətinin və hündürlüyünün zamanla dəyişib-dəyişmədiyini müəyyən edəcək.

Tədqiqatçıların nəticələri ilə "Nature Astronomy" jurnalında tanış olmaq olar.

***P.ƏFƏNDİ***
**XQ**

## Sənət inciləri

# "Çay yığan qızlar"

**Xalq rəssamı Böyükağa Mirzəzadənin yaradıcılığında dərin iz buraxan əsərlərdən biri də "Çay yığan qızlar" tablosudur. Bu əsərdə biz gənc qızların tarlada necə həvəslə işlədiyini görürük.**



1967-ci ildə yağlı boya ilə kətan üzərinə həkk edilmiş bu əsərdə əsasən soyuq rənglərdən istifadə olunub. Tabloda qadınların geyimi və əllərindəki səbətlər isə yaşıl, qırmızı və sarı rənglərlə təsvir edilmişdir ki, bu da rəsma özünəməxsus fərqlilik verir.

Bir sözlə, demək olar ki, rəsmin mövzusu ilə rəng ahəngi bir-birini tamamlayır. Həmçinin əsərdə rəssam jest və mimikalar vasitəsilə qəhrəmanların həm zahiri, həm də daxili aləmlərini məharətlə əks etdirməyi bacarıb.

Hazırda tablo Azərbaycan Dövlət Rəsm Qalereyasında saxlanılır və nümayiş etdirilir.

***Leyla HADİ,***
***tələbə-jurnalist***

## Hava



# Hava yağmursuz və dumanlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən oktyabrın 27-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 14-17°, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 24-29°, dağlarda gecə 3-8°, gündüz 12-17° isti olacaq.

***Q. QASIMOV***
**XQ**

# Meksikalı məktəblilər Azərbaycanda

**Azərbaycanın Meksikadakı Səfirliyi bu ölkənin nüfuzlu orta məktəblərindən biri olan və paytaxt Mexikoda yerləşən özəl "British American School"da Birləşmiş Millətlər Günü münasibətilə keçirilən sərgidə iştirak edib.**



Qeyd olunub ki, sərgidə Azərbaycanın milli mədəniyyəti, milli geyimləri, dulusçuluq, misgərlik, xalçaçılıq kimi əl sənəti nümunələri, o cümlədən müxtəlif suvenirlər, kiçik xalçalar, eləcə də ölkəmizə aid müxtəlif təbliğat materialları nümayiş etdirilib və paylanılıb.

Azərbaycan stendini ziyarət edən müxtəlif yaş qruplarından olan məktəblilər, eləcə də məktəbin rəhbər və müəllim heyətinə ölkəmizin tarixi və mədəniyyəti barədə məlumat verilib, həmçinin milli mətbəximizin ləziz nümunələri təqdim olunub.

**XQ**

## Texnologiya yenilikləri

# "Apple"ın Türkiyə sevgisi

**Yaxın günlərdə Türkiyə Cümhuriyyətinin 100 yaşı tamam olacaq. Apple şirkəti bu günün şərəfinə türk kinosu, musiqisi və proqram tərtibatçıları üçün müxtəlif oyun siyahıları hazırlayıb.**




Şirkətin dərc etdiyi türk filmləri siyahısına Apple TV-də baxa biləcəyiniz 100 türk kinosu daxildir. Digər 2 siyahıda sevilən türk sənətçilərinin hit mahnıları və mobil oyunlar yer alıb.

Qeyd edək ki, XIII əsrin sonlarından osmanlıların siyasi idarəçiliyi ilə davam edən bu dövlət 1923-cü ildən başlayaraq Türkiyə Cümhuriyyəti adlandırılıb. Türkiyə göstərilən dövr ərzində dünya dövlətlərinin əksəriyyəti ilə diplomatik münasibətlər qurmuş, ölkəsinin gücünü bərpa etməyə nail olmuşdur.

100 yaşın mübarək olsun, Türkiyə!

***F. SALMANOVA***
**XQ**

## Sağlamlıq

# Ürəyin səhər pəhrizi

**Ənənəvi olaraq səhərlər hazırlanan yeməklər ürək-damar problemləri olanlar üçün zərərlidir. Qastroenteroloq Yekaterina Kaşux ürək xəstələri üçün uyğun olmayan səhər qidalarını açıqlayıb.**



Bildirib ki, arterial təzyiqi olan insanlara blinçik, qayğanaq, kolbasa, mürəbbə, içliki qoğal ziyandır. Bu qidalarda yüksək xolesterin olduğundan, damarlarda LDL səviyyəsi qalxır. İnfarkt və insult riskini azaltmaq üçün heyvani yağ, piy mənşəli qidaları, mağaza şirniyyatlarını, şirin içkiləri və duzu azaltmaq lazımdır.

Ürək xəstələri səhərlər və gün ərzində taxıl, lifli qidalar, toyuq əti, tərəvəz, alma, qoz, qarabaşaq, süd məhsulları və giləmeyvələr, faydalı sıyıqlar yeməlidirlər.

# Təbii antixolestrollar

**Əsas sağlıq problemlərindən biri də qanda xolesterinin çox olmasıdır. Xolesterini dərmanla olduğu kimi, təbii vasitələrlə də azaltmaq mümkündür.**



Belə təbii vasitələrdən biri yüksək lifli yulafdır. Yulaf LDL (pis xolesterol) səviyyəsini azaldır. Bu məqsədlə yulaf qəhvəsindən də istifadə edirlər.

Xolestorol səviyyəsini aşağı salan badam və fındıq, dəniz məhsulları sağlam yağlar və liflərlə zəngindir. Müalicə məqsədilə zeytun yağından da istifadə edilir.

Antioksidantlar baxımından zəngin olan qara çay, liflərlə zəngin olan əncir, avokado da xolesterolu azaldan fitonütrientlər və antioksidanlarla zəngindir. Yoqurt, süd kimi probiotik məhsullar da xolesterini azaldır. Qanda xolesterin səviyyəsini azaltmaq üçün bu bitkilərdən istifadə edərkən, onları qida planınıza düzgün şəkildə əlavə etmək, yağ və qəhvə istifadəsini azaltmaq lazımdır.

# Bənövşəyi kartof

**İstehlak edilməsi tövsiyə edilən bənövşəyi kartof dadı ilə də diqqət çəkir. Görünüşü ilə süfrələrə gözəllik verən bu kartofun faydaları çoxdur. Qan dövranını və təzyiq tarazlığını tənzimləyir, damarları gücləndirir, insana uzun müddət toxluq hissi verir.**



Bənövşəyi kartofu ən çox qızardıb yeyirlər. Yemək belə hazırlanır: 3 bənövşəyi kartof, 1 xörək qaşığı zeytun yağı, 1 baş sarımsaq, duz və istiot götürülür. Kartoflar yaxşıca yuyulduqdan onu həm qabıqlı, həm də qabıqsız istifadə etmək olar. Çünki qabıqlar daha çox antioksidant xüsusiyyətlərə malikdir. Kartoflar eyni ölçüdə kəsilir, böyük bir qabda bibər, duz və istiot əlavə edilib qarışdırılır. Sonra üzərinə bir diş sarımsaq da əzilib tökülür. Doğranıb hazırlanmış kartof qızardılmaq üçün bir qaba tökülür. Əvvəlcədən isidilmiş 400 dərəcə sobada 25–30 dəqiqə müddətində qızardılır.

***Z.HÜSEYNLİ***
**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4795
SİFARİŞ 2716
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00